# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 50 (3288) Çərşənbə axşamı / 2-3 iyun 2020-ci il Qiymәti 40 qəpik


### Yoxlama

■ **Gömrük nəzarətindən gizlədilən etiketlər aşkarlanıb. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan "Daf XF 105 460" markalı yük nəqliyyat vasitəsilə gələn Azərbaycan vətəndaşı saxlanılıb.** Sorğu-sual zamanı o, avtomobildə gömrük nəzarətindən gizlədilən və ya mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirib. Lakin gömrük yoxlaması nəticəsində həmin nəqliyyat vasitəsinin salonunda - oturacağın alt hissəsində, hava filtrinin içərisində gömrük nəzarətindən gizlədilən üzərində "R.Ş.A" yazılan 4 rulon, üzərində "R.Ş.A Collection" yazılan 98 min ədəd, üzərində "Öznur" yazılan 1100 ədəd, üzərində "İpek Home Collection" yazılan 3500 ədəd etiketdən ibarət olub. Faktla bağlı araşdırma aparılır.

### Olay

■ **Dünən saat 14:00 radələrində Bakıda ikiyaşlı qız bədbəxt hadisənin qurbanı olub.** Hafta.az xəbər verir ki, bu barədə oxu.az-a hüquq-mühafizə orqanlarından məlumat verilib. Bildirilib ki, Sabunçu rayonu Pirşağı qəsəbəsinin Qızılqum yaşayış massivində 2018-ci il təvəllüdlü E.K. həyətlərində yerləşən hovuzda boğulub. Faktla bağlı rayon prokurorluğunda araşdırma aparılır.

### Qəza

■ **Abşeron rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.** İnsident rayonun Mexkalon yaşayış məntəqəsində qeydə alınıb. Abşeron Rayon Polis İdarəsindən hafta.az-a bildirilib ki, 1980-ci il təvəllüdlü Sarvan Muradovun idarə etdiyi "Mercedes 1317L" markalı yük avtomobili yolda hərəkətdə olan velosipedçi, 2004-cü il təvəllüdlü Arzu Tağıyevi vurub. O, aldığı xəsarətlərdən hadisə yerində ölüb. Faktla bağlı Cinayət Məcəlləsinin 263.2-ci (yol-istismar qaydalarını pozma, zərərçəkənin ölümünə səbəb olma) maddəsi ilə cinayət işi başlanıb.

### Qətl

■ **İyunun 1-də səhər saat 06 radələrində 1955-ci il təvəllüdlü Hüseyn Əhmədovun paytaxtın Sabunçu rayonu Kürdəxanı qəsəbəsi ərazisində yerləşən işlədiyi mağazanın anbarında üzərində zorakılıq əlamətləri olan meyitinin aşkar edilməsi barədə məlumat daxil olub.** Sabunçu rayon prokurorluğundan hafta.az-a verilən məlumata görə, prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilən zaman mağazanın seyfindən 40 min manat məbləğində pul vəsaitinin oğurlandığı müəyyən edilib. Faktla bağlı Sabunçu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.11 (quldurluq, hədə-qorxu ilə tələb etməklə əlaqədar adam öldürmə) və 181.3.3-cü (zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla quldurluq) maddələri ilə cinayət işi başlanıb. İş üzrə müvafiq ekspertizalar təyin edilmiş və digər zəruri istintaq-əməliyyat tədbirləri aparılıb. Hazırda cinayəti törətmiş şəxs və ya şəxslərin dairəsinin müəyyən edilərək istintaqa cəlb olunması istiqamətində təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# 400 manat cərimələnə bilərsiniz



***Milli Məclisin növbəti plenar iclası keçirilib. Millət vəkilləri cari məsələlər və gündəlikləri məsələlərlə bağlı fikirlərini bildiriblər. "Hazırda bütün dünyada 4,54 milyard sosial şəbəkə istifadəçisi var". Bunu Milli Məclisin növbədənkənar sessiyasının ilk iclasında vitse-spiker Adil Əliyev deyib. O bildirib ki, sosial şəbəkələrin bir çoxu ABŞ-da yaradılıb və ofisləri ordadır:***

"Lakin ABŞ-da sosial şəbəkələrlə bağlı qanun layihəsi hazırlanıb. Layihənin əsas məqsədi terrorçuluqla və digər hallarla bağlı çağırışların qarşısını almaqdır. Sosial şəbəkə istifadəçisi, təbii ki, fikrini ifadə etməlidir. Lakin Konstitusiyanın 47-ci maddəsi diqtə edir ki, tənqidə dözümlü olmalıyıq, təhqirə isə yox. Sosial platformalar hansısa məqsədlərə nail olmaq üçün istifadə edilən yerdir. ABŞ prezidentinin dediyi kimi, sosial şəbəkələr bir qrup insannın maraqlarını təmin edən platformaya çevrilib. Son zamanlar ölkəmizdə də müharibə, terrorizm və s. ilə bağlı çağırışlar edilir. Ancaq bu qanunazidd addımların qarşısı alınır. Lakin bizim müvafiq komitəmizdə bu məsələ ilə bağlı Cinayət Məcəlləsində dəyişiklik edilməsinə ehtiyac var. Cinayət və İnzibati Xətalar Məcəlləsində bu dəyişikliklərin edilməsi üçün peşəkar hüquqşünaslar da bu məsələyə cəlb edilsin". Millət vəkili qeyd edib ki, təhqirə ən çox məruz qalan deputatlardan biri də özüdür:

## Parlament

"Mən cavab verdiyim üçün onlar bunu daha da davam etdirirlər. Mənimlə eyni gündə digərlərini də təhqir ediblər, onlar susublar deyə, daha onların üstünə getməyiblər. Bu məsələdə susmaq olmaz. Sabah digərlərimiz də təhqirə məruz qala bilərik. Ona görə də bununla biz birgə mübarizə aparmalıyıq".

"Bu gün dünya iki yerə bölünüb. Faktiki olaraq, bu dünyada hüquq işləmir, hüququn gücü yoxdur. İkinci isə virtual dünyadır. Bu dünyada isə "qaralama", "ləkələmə", "terrorizmə çağırış" üstünlük təşkil edir".

■ **Bunu isə Milli Məclisin bu gün keçirilən növbədənkənar sessiyasının ilk iclasında millət vəkili Elman Nəsirov deyib.** O bildirib ki, sosial şəbəkələrdə təhqir yolunu seçmiş bir qrup insan siyasi manipulyasiya etməklə məşğuldur: "Sabah onlar hansısa cinayət əməlinə görə həbs edəndə, iddia qaldırırlar ki, hansısa fikirlərinə görə həbs ediblər. Təklif edirəm ki, iyun ayı ərzində sosial şəbəkələrlə bağlı çox ciddi bir qanunu qəbul edək. Bu, artıq ictimai sifarişdir". ardı səh. 3



# Gömrükçülər 281 kiloqramdan çox narkotik vasitə aşkarlayıblar

**Gömrükçülər 281 kiloqramdan çox narkotik vasitə aşkarlayıblar. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, Cənub Ərazi Baş Gömrük İdarəsi Əməliyyat və Təhqiqat İdarəsinə İrandan Avstriyaya "kişmiş" yükü daşıyan iki ədəd "Daf" markalı 34AA941/34AA942 və 91D657-10/91-D658-10 qeydiyyat nişanlı yük avtomobillərində külli miqdarda narkotik vasitələrin gizlədilərək aparılacağı barədə əməliyyat məlumatı daxil olub.** Daxil olmuş məlumat əsasında Biləsuvar gömrük postunda ölkəmizdən tranzit keçməklə Avstriyaya "kişmiş" yükü aparan İran vətəndaşları Mırzaeisaatlou Akbar Parvızın və Abdelıkhanghah Ramın Mashatlının idarə etdikləri yük avtomobilləri saxlanılaraq gömrük nəzarətinə cəlb olunub.

Kinoloji xidmət itləri xüsusi işarə və hərəkətlərlə yük avtomobillərinə reaksiya verdiyindən Skanlaşdırma və texniki nəzarət vasitələrinin tətbiqi şöbəsinin əməkdaşları tərəfindən avtomobillər rentgen qurğusunda yoxlanılıb. Şifahi sorğu-sual zamanı hər iki sürücü idarə etdikləri nəqliyyat vasitələrində gömrük nəzarətindən gizlədilən, gömrük nəzarətinə bəyan olunası hər hansı predmetin, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin olmadığını bildirsələr də, rentgen qurğusu vasitəsilə keçirilən baxış zamanı monitorda avtomobillərin yanacaq çənlərinin içərisində şübhəli cizgilər müşahidə olunub.

Baxış zamanı düzbucaqlı formalı yanacaq çənlərinin sonradan kustar üsulla iki hissəyə bölündüyü, həmin hissələrdən birində gömrük nəzarətindən gizlədilmiş tünd qəhvəyi rəngli, kəskin qoxuya malik, tərkibində narkotik maddənin - heroinin olduğu məhlul aşkarlanıb. M.Parvızin idarə etdiyi yük avtomobilinin yanacaq çənindəki gizli saxlanc yerindən tərkibindəki heroin narkotik vasitəsinin çəkisi 143 kiloqram 990 qram olan 374 litr, A.Mashatlının idarə etdiyi yük avtomobilindən isə tərkibindəki heroin narkotik vasitəsinin çəkisi 137 kiloqram 445 qram olan 357 litr məhlul aşkar olunub. Ümumilikdə, hər iki yük nəqliyyat vasitəsindən külli miqdarda, 281 kiloqram 435 qram narkotik vasitə - heroin aşkar edilib.

Nəqliyyat vasitələrinin sürücüləri cinayət hadisələrini törətmələrinə əsaslı şübhələr olduğundan şübhəli şəxs qismində tutulub və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2, 234.4.1 və 234.4.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara ittiham elan olunub.



# Biz Azərbaycan tərəfindən verilmiş humanitar dəstəklə artıq 14 ölkəni əhatə etmişik

**İyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**

Bankın prezidenti Masatsuqu Asakavanı salamlayan Prezident İlham Əliyev dedi:

- Sabahınız xeyir, cənab prezident. Sizi görmək çox xoşdur.

Masatsuqu Asakava: Sabahınız xeyir, cənab Prezident. Çox sağ olun. Gərgin iş qrafikinizə baxmayaraq, vaxt tapıb bizimlə görüşdüyünüzə görə təşəkkür edirik. Azərbaycanla Asiya İnkişaf Bankı arasında əməkdaşlıq 1999-cu ildən bəri dərinləşməkdədir. Burada söhbət təkcə bir sıra layihələrdən getmir, həmçinin bizim birgə regional əməkdaşlığımız da mövcuddur. Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci İllik Toplantısının 2015-ci ildə Bakıda uğurla keçirilməsi qarşılıqlı etimad və hörmət üzərində qurulmuş tərəfdaşlığımızın bariz nümunəsi olmuşdur.

Şəxsən Sizinlə və hökumətinizlə birbaşa əlaqə mən və heyətim üçün olduqca vacibdir. Biz etibarlı tərəfdaşınız olaraq COVID-19 pandemiyasının yayıldı və neftin qiymətinin kəskin aşağı düşdüyü bir vaxta Azərbaycanın atdığı addımları tam şəkildə dəstəkləyirik. Bu, bizə ölkənizin ehtiyaclarına uyğun optimal cavab tədbirləri hazırlamağa imkan verəcəkdir.

Bu videokonfransa Asiya İnkişaf Bankının Direktorlar Şurasında Azərbaycan üzrə icraçı direktor Antoni Makdonald, bankın vitse-prezidenti Şiksin Çen, Mərkəzi və Qərbi Asiya üzrə baş direktor Verner Lipax və bankın Azərbaycan ofisinin direktoru Nariman Mannapbekov da qoşulub.

Prezident İlham Əliyev: Təşəkkür edirəm, cənab prezident. İlk növbədə, sizi Asiya İnkişaf Bankının prezidenti seçilməyiniz münasibətilə təbrik etmək və fəaliyyətinizdə uğurlar arzulamaq istərdim. Əminəm ki, sizin rəhbərliyiniz dövründə Azərbaycan və Asiya İnkişaf Bankı son 20 ildə olduğu kimi, sıx şəkildə işləməyə davam edəcək. Qeyd etdiyiniz kimi, biz çox güclü tərəfdaşlıq qurmuşuq. Biz hamımız Asiya İnkişaf Bankının illik toplantısının 2015-ci ildə Bakıda keçirildiyini xatırlayırıq. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlaməti idi və görüş çox uğurla keçdi.

Bildiyiniz kimi, biz bir sıra mühüm layihələr üzərində işləyirik. Asiya İnkişaf Bankının Azərbaycana ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard ABŞ dollarını ötür. Bu vəsait bizə infrastruktura investisiya yatırmağa kömək edib. Biz elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol tikintisi, su və kanalizasiya ilə bağlı çoxsaylı infrastruktur layihələrini dəstəklədiyinə görə Asiya İnkişaf Bankına çox minnətdarıq. Əlbəttə ki, biz Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə sadiqliyinizə və dəstəyinizə, maliyyə dəstəyinizə görə sizə çox minnətdarıq. Mən sizə deyə bilərəm ki, Asiya İnkişaf Bankı bu layihəyə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci olub. Sizin çox mühüm və vaxtında göstərdiyiniz dəstək bizə, həmçinin çox geniş kreditorlar qrupu yaratmağa kömək etdi. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi tamamlanmağa çox yaxındır, 3 layihə artıq tamamlanıb. Dördüncüsü - Trans-Adriatik boru kəməri 95 faizdən çox tamamlanıb. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlamətidir.

Hazırda biz yeni layihələr üzərində işləyirik. Mənə verilən məlumata görə, bizim portfelimizdə suvarma və təhsillə bağlı icra olunacaq bəzi layihələr var. Bütün bunlar çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, qarşıdakı illərdə əməkdaşlığımız davam edəcək. Sizin burada - Bakıdakı və mənzil-qərargahınızdakı komandanız bizim prioritetlərimizi, inkişafımız üçün prioritetlərin nədən ibarət olduğunu bilirlər. Bu, əsasən, özəl sektor, infrastrukturun inkişafı, kiçik və orta müəssisələrə dəstək məsələləri ilə əlaqədardır.

Əlbəttə ki, pandemiya dövründə göstərdiyimiz bütün səylər insanları necə xilas etmək, onların sağlamlığını, həyatlarını necə qorumaq məqsədi daşıyıb. Azərbaycanın vaxtında gördüyü tədbirlər sayəsində biz minimum itki vermişik. Ümumdünya Səhiyyə Təşkilatının bəyanatlarına əsasən Azərbaycan pandemiya ilə mübarizədə nümunə hesab olunur. Biz, həmçinin böyük həcmdə vəsait ayırmışıq. İqtisadiyyatın pandemiyadan zərər çəkən sektorlarını dəstəkləmək, eləcə də işsizliyi, işini itirmiş insanları, aztəminatlı insanları və hətta qeyri-formal məşğulluğa cəlb olunmuş insanları dəstəkləmək üçün 2 milyard avrodan çox vəsait ayırmışıq.

Biz qeyri-formal məşğulluqla mübarizə aparırıq və ciddi tədbirlər görmüşük. Təkcə bu il işçilərlə şirkətlər arasında 100 mindən çox müqavilə imzalanıb. Lakin bununla belə, biz bu insanların bu problemdən əziyyət çəkdiyini başa düşürük. Bu səbəbdən də 4 ay ərzində iqtisadi artımımız çox az olmuşdur, bununla belə, 0,2 faiz təşkil etmişdir. Mən bilirəm ki, hazırda bir çox ölkələr, əfsuslar olsun, resessiyadadır. Beş ayın nəticələri hələ ki, bizə məlum deyil, ola bilsin, 1 həftə ərzində məlum olacaq. Lakin düşünürəm ki, biz bu vəziyyətin öhdəsindən gələ biləcəyik. Sizin doğru olaraq qeyd etdiyiniz kimi, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim üçün əlbəttə ki, çağırışdır. Lakin biz addımlarımızı, büdcəmizi yeni reallıqlara uyğunlaşdırmağa nail olmuşuq və reallıqlar necə olsa, biz bunu nəzərə almalıyıq. Biz sosial layihələrin heç birini ixtisara salmamışıq, onların hamısı büdcəmizdə qalır. Lakin o layihələr ki, bir neçə il gözləyə bilər, onlar, əlbəttə, ola bilsin bir qədər təxirə salınsın. Düşünürəm ki, ümumilikdə, Azərbaycan yaxşı nəticələr nümayiş etdirən ölkələr arasında olacaq.

Mən bilirəm ki, çox ölkələr, eşitdiyimə görə, 150-dən çox ölkə maliyyə dəstəyi üçün artıq beynəlxalq maliyyə institutlarına müraciət edib. Azərbaycan onların arasında deyil. Bilirsiniz ki, biz üzərimizə düşən işi layiqincə yerinə yetiririk və bizim xərclərimiz daim mənfəətimizdən aşağı olub. Mən deyərdim ki, ehtiyatları qorumaq və artırmaq bizim başlıca iqtisadi hədəfimiz olub. ardı səh. 2

GÜNDƏM

# Ailəsində koronavirusa yoluxma halı olan şəxslər imtahanlara buraxılmayacaq



**İmtahanlara gələnlər ailə üzvləri arasında son 15 gün ərzində koronavirusun olmaması barədə bəyannamə imzalamalıdırlar.** Hafta.az xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə dünən keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, əgər ailəsində koronavirusa yoluxma halı olan şəxs olarsa, onlar iyunda keçiriləcək buraxılış imtahanında iştirak edə bilməyəcəklər: "Onlar sentyabrda imtahan verərək attestat ala biləcəklər, amma ali məktəblərə qəbul olmaq üçün bu il imtahan verə bilməyəcəklər. Belə hal ilk dəfə baş vermir. Əvvəlki illərdə də suçiçəyi, qızılca kimi xəstəliyi olanlar imtahanlara buraxılmayıblar. Biz insanların təhlükəsizliyini qorumalıyıq və bu, daha vacibdir". Gələn həftədən hər həftə sonunda 44-45 min nəfər imtahan verəcək. Məleykə Abbaszadə deyib. Onun sözlərinə görə, 1 ay ərzində 190 min insan imtahanlarda iştirak etməlidir.

Onların 94 min nəfəri 11-ci sinif məzunudur və buraxılış imtahanı verirlər. Eyni zamanda, 96 min nəfər 9-cu sinif məzunu imtahan verməlidirlər: "İmtahanlara hazırlıq çox mürəkkəb olub. 1500-dən çox məktəb binasına baxış keçirilib. Binaların sanitar-gigiyenik tələblərə hazırlığı çox vacib məsələdir".


"HƏFTƏ İÇİ"ndən



## Bəs sizin toyunuz nə vaxta qaldı?

Ümidimiz var ki, bu yaxın günlərdə bərpa olunacaq. Sifarişləri qəbul etmişik

bax səh. 7



## Ekoloji mühitin qorunmasına diqqət artırılıb

Abşeron yarımadasının 2020-2025-ci illər üçün yaşıllaşdırılması proqramına əsasən, 10 min hektaradək ərazinin yaşıllaşdırılması planlaşdırılır

bax səh. 6

# Daha 168 nəfər COVİD-19-a yoluxub, 5 nəfər vəfat edib



**Azərbaycan Respublikasında koronavirus infeksiyasına 168 yeni yoluxma faktı qeydə alınıb, 80 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1940, 1952, 1955, 1959 və 1962-cı il təvəllüdlü 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 5662 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3508 nəfər müalicə olunaraq sağalıb, 68 nəfər vəfat edib, 2086 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 55 nəfərin vəziyyəti ağır, 69 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 302.933 test aparılıb.

# Bağlanmış banklarda qorunan əmanətlərin həcmi açıqlandı

**“Bağlanmış banklarda qorunan əmanətlərin həcmi 680 mln. manat təşkil edir. Bu bankların kredit portfeli isə 1,217 mlrd. manatdır, ADİF bu vəsaitin yığımını həyata keçirəcək”.**



Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmov deyib. Onun sözlərinə görə, bu vəsaitin 200 mln. manatı Əmanətlərin sığortalanması Fondunun (ADİF) vəsaitləri hesabına, 480 mln. manatı isə AMB-dən dövlət zəmanəti ilə kredit şəklində veriləcək: “Artıq Maliyyə Nazirliyinə müraciət edilib. Qısa müddətdə vəsait veriləcək”. E. Rüstəmov onu da bildirib ki, əmanətlərin bir qismi valyutadadır və AMB bununla bağlı üzərinə öhdəlik götürüb: ”Təxminən 200 mln. valyuta formasında veriləcək”.

# Vergi ödəyicilərinə 135 mln. manatdan çox maliyyə dəstəyi göstərilib

**Azərbaycan İqtisadiyyat Nazirliyinə muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş 28 056 vergi ödəyicisi və maliyyə dəstəyi almaq üçün 112 565 fərdi (mikro) sahibkar, cəmi 140 621 vergi ödəyicisi müraciət edib.**

Nazirlikdən hafta.az-a verilən məlumata görə, muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi çərçivəsində 257 522 işçini əhatə edən 28 056 sahibkarın müraciəti araşdırılaraq təsdiqlənib və ayrılacaq maliyyə vəsaitinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Digər vergi ödəyiciləri üzrə araşdırmalar davam edir. İndiyədək təsdiq edilən müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 94,73 mln. manat, o cümlədən o cümlədən, 2-ci ay üzrə ödənilməsi nəzərdə tutulan vəsaitin həcmi 47,36 mln. manat təşkil edir. Mayın 31-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 23 131 vergi ödəyicisinə 201 250 nəfər muzdlu işçinin əməkhaqqı üzrə 77,54 mln. manat vəsaitin köçürülməsi təmin edilib.

Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 112 565 vergi ödəyicisindən müraciət daxil olub, 105 173 müraciət araşdırılaraq təsdiqlənib və maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Təsdiq edilən müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 60,20 mln. manat təşkil edir. Mayın 31-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən artıq 57,71 mln. manat vəsaitin 99 603 fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin edilib.

Göründüyü kimi, mayın 31-nə pandemiyadan zərər çəkən vergi ödəyicilərinə 135 264,2 min manat məbləğində maliyyə dəstəyi göstərilib.

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır,
səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Biz Azərbaycan tərəfindən verilmiş humanitar dəstəklə artıq 14 ölkəni əhatə etmişik

◂ əvvəli 1-ci səhifədə

Masatsuqu Asakava: Təşəkkür edirəm, cənab Prezident. Pandemiya ilə mübarizə və onun Azərbaycana təsiri ilə bağlı həyata keçirdiyiniz nəhəng islahat paketi barədə mənə məlumat verilib. Sizin rəhbərliyinizlə beynəlxalq platformalarda - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Qoşulmama Hərəkatı çərçivəsində pandemiyaya qarşı səylərin əlaqələndirilməsi məndə dərin təəssürat yaratdı. Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına COVID-19-la mübarizə fonduna toplam 10 milyon ABŞ dolları, o cümlədən bu sahədə ehtiyacı olan Qoşulmama Hərəkatına üzv dövlətlərə 5 milyon ABŞ dolları həcmində ianə ayırması da təqdirəlayiq haldır. Həmçinin bilirəm ki, pandemiyadan əziyyət çəkən 13 ölkəyə, o cümlədən Çin Xalq Respublikası, Pakistan, Qırğızıstan, Tacikistan və Özbəkistana da Azərbaycan tərəfindən yardım göstərilib.



Bununla yanaşı, fürsətdən istifadə edərək, hökumətinizin 13-cü Asiya İnkişaf Fonduna töhfə vermək qərarına görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Dünyanın yoxsul və həssas vəziyyətdə olan ölkələri bu imkandan yararlanacaqdır. Təşəkkür edirəm. COVID-19-la bağlı vəziyyətə gəldikdə, mənə hökumətiniz tərəfindən pandemiya əleyhinə atılan qabaqlayıcı tədbirlər, ölüm hallarının aşağı səviyyədə olması və aparılan test sayının artması barədə məlumat verilib. Bu, onu nümayiş etdirir ki, ölkədə səhiyyə sahəsində risklər çox yaxşı idarə edilir.

Cari ilin ilk 4 ayı ərzində ölkənizin makroiqtisadi göstəriciləri kifayət qədər sabit olmuşdur. Dövlət büdcəsinə daxilolmalarda artımın olması təqdirəlayiqdir, lakin ilin ikinci yarısında güclü azalma riskləri ehtimalı mövcuddur. Bu baxımdan, tərəfinizdən ümumi daxili məhsulun 4,3 faizinə bərabər, geniş iqtisadi yardım paketinin qısa müddətdə qəbul edilməsini, pandemiyanın yayılmasının qarşısının alınması üçün səhiyyə sahəsində addımların atılmasını, sosial tədbirləri və biznesin dəstəklənməsini alqışlayırıq. Bildiyim qədər, Azərbaycanın Mərkəzi Bankı da maliyyə sektorunun dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava rəhbərlik etdiyi qurumun COVID-1-la mübarizə sahəsində dəstək paketi haqqında məlumat verdi. Bildirdi ki, bu paketə tibbi ləvazimat və şəxsi qoruyucu vasitələrin alınması üçün qrantların ayrılması, iqtisadiyyata və cəmiyyətə təsirin azaldılması üçün büdcə dəstəyi, özəl sektorda işlə təminatın və fəaliyyətin dayanıqlı olması üçün kredit və zəmanətlərin verilməsi məsələləri daxildir. O, 2016-cı ildə neftin qiymətinin kəskin aşağı düşdüyü bir şəraitdə iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı bankın Azərbaycanla əməkdaşlığı məsələsinə də toxundu. Bildirdi ki, bank tərəfindən hazırda ölkələrin bütün ehtiyaclarının qarşılanması və Asiya İnkişaf Bankı ilə uzunmüddətli əlçatanlığın təmin edilməsi məqsədilə müvafiq meyarlara cavabvermənin dəyərləndirilməsi aparılır və beləliklə, hər bir ölkə üçün kreditin maksimal məbləği müəyyən edilir.

Prezident İlham Əliyev: Çox sağ olun, cənab prezident. Əvvəla qeyd etmək istərdim ki, koronavirusla mübarizədə və dünya miqyasında göstərdiyimiz təşəbbüslərlə bağlı yaxşı məlumatlı olmağınız məni çox sevindirir. Belə təsadüf edib ki, Azərbaycan hazırda sizin də qeyd etdiyiniz kimi, iki təşkilata - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və Qoşulmama Hərəkatına sədrlik edir. Ötən il bizim çox uğurlu Zirvə görüşümüz olmuşdur və Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bu təşkilata sədr seçilmişdir. Buna görə düşündük ki, bütün dünya üçün bu önəmli vaxtda liderlik göstərmək və çox mühüm əməkdaşlıq formatını yaratmaq bizim öhdəliyimizdir. Hər iki Zirvə görüşü uğurla keçdi. Sizə deyə bilərəm ki, biz nəinki təkcə koronavirusla mübarizə sahəsində fikir mübadiləsi apardıq, eyni zamanda, qarşılıqlı dəstək göstərdik. Zirvə görüşündən sonra üzv ölkələrin müvafiq nazirlərinin iştirakı ilə koronavirusla mübarizə sahəsində birgə səylərlə bağlı çox mühüm məsələlərə həsr olunan bir sıra konfranslar keçirilmişdir.

Həmçinin bizim Ümumdünya Səhiyyə Təşkilatına ianəmiz haqqında da sizin yaxşı məlumatınız var. Düşünürəm ki, biz ilk dəfə beş milyon dollar ayıran ölkələr arasında birinci ölkələrdən idik, sonra isə Qoşulmama Hərəkatının sədri qismində əlavə beş milyon dollar ayırdıq. Biz Azərbaycan tərəfindən verilmiş humanitar dəstəklə artıq 14 ölkəni əhatə etmişik. Bu, həm maliyyə, həm avadanlıq, həm də tibbi ləvazimatlar dəstəyi olmuşdur. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə biz yardıma ən çox ehtiyacı olan 15 ölkəyə dəstək göstərəcəyik. Ümumdünya Səhiyyə Təşkilatı ilə razılaşmada bu 15 ölkə müəyyən olunub. Ona görə də bu müddət ərzində Azərbaycan demək olar ki, 30 ölkəyə dəstək verib. Düşünürəm ki, bu, bizim üzərimizə düşən məsuliyyətdir. Çünki bu çətin zamanda ölkələr və insanlar bir-birini dəstəkləməlidirlər.

Əməkdaşlığımızla bağlı yeni ideyalara gəlincə, biz bunda çox maraqlıyıq. Çünki mən xatırlayıram ki, 5-6 il bundan əvvəl bizim maliyyə dəstəyinə ehtiyacımız olanda Asiya İnkişaf Bankı çox tez reaksiya göstərdi. Həqiqətən də bu, mənə çox xoş təsir bağışladı və mən bir daha çox vaxtında göstərilmiş dostcasına yanaşmaya görə minnətdarlığımı ifadə etmək istəyirəm. Biz bunun əməkdaşlığın çox yaxşı əlaməti olduğunu nəzərə aldıq. Əvvəl qeyd etdiyim kimi, Cənub Qaz Dəhlizi layihəsini ilk dəstəkləyən siz oldunuz. Yeri gəlmişkən, biz Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantılarını təşkil edirik. Mən xatırlayıram, bəzi başqa banklar layihəyə maliyyə öhdəliyini nəzərdən keçirdiyi vaxtda qeyd etdim ki, “Şahdəniz”dən hasil olunan qaz Avropaya nəql ediləcək. Lakin Avropa banklarında hələ proses getdiyi halda, Asiya İnkişaf Bankı artıq maliyyələşməni təmin etdi. Düşünürəm ki, sizin çox dostcasına verdiyiniz dəstək böyük bir qrupun birləşməsində mühüm rol oynadı.

Sonra çıxış edən Azərbaycanın Maliyyə naziri Samir Şərifov dedi: Çox sağ olun, cənab Prezident, prezident Asakava. Cənab Prezident, söhbətinizin davamı olaraq bildirmək istərdim ki, hazırda biz Asiya İnkişaf Bankı ilə ölkə üzrə biznes əməliyyatları strategiyası əsasında işləyirik. Bu strategiya çərçivəsində Asiya İnkişaf Bankı qarşıdakı 3-4 il üçün Azərbaycanla bağlı kredit prioritetlərini müəyyənləşdirməyə çalışır. Bildirmək istərdim ki, hazırda onlar, həmçinin Azərbaycanla bağlı çox mühüm texniki yardım proqramlarında olduqca fəal iştirak edirlər. Onların bir neçəsi həqiqətən də çox mühümdür, xüsusilə layihəyə hazırlıq mexanizmi. Bu da, həmçinin kredit vasitəsilə tamamlana bilən texniki yardım proqramıdır. Cənab Prezident, başqa bir mühüm layihə startapların yaradılması üçün texniki yardım layihəsidir. Bunlar olduqca mühüm layihələrdir.

Maliyyə naziri Samir Şərifov Azərbaycanda peşə təlimi sisteminin gücləndirilməsi məsələsi ilə bağlı bankla əməkdaşlığa toxunaraq bildirdi ki, hazırda Asiya İnkişaf Bankının təqdim etdiyi peşə təhsili təlimi layihəsi ilə əlaqədar bu qurumla Təhsil Nazirliyi arasında müzakirələr başlayıb. Nazir qeyd etdi ki, digər layihə əsasən özəl və maliyyə sektoru ilə bağlıdır. Bildirdi ki, ənənəvi layihələr arasında suvarma layihələri var. Asiya İnkişaf Bankı dövlətimizin başçısının imzaladığı fərmanla Azərbaycanda sudan istifadə məsələləri ilə məşğul olmaq üçün hökumət yanında Operativ Qərargahın yaradılmasından məlumatlıdır və bu məsələyə töhfə vermək niyyətindədir. Samir Şərifov dedi ki, Asiya İnkişaf Bankı bu sahədə Naxçıvan Muxtar Respublikasında layihəni nəzərdən keçirməyi təklif edir.

Masatsuqu Asakava: Azərbaycanın dayanıqlı inkişafına verdiyimiz töhfənin hansı şəkildə olması aydın oldu. İcazə verin, bir neçə məqamı qeyd edim. Asiya İnkişaf Bankı Sizin hökumətinizin iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsinə və inklüziv artımın təşviqinə, eləcə də koronavirus böhranından tez bir zamanda iqtisadiyyatın bərpa olunmasına yönəlmiş strateji inkişaf gündəliyinə verdiyi dəstəyi davam etdirəcək. Bu halda, şaxələndirilmiş iqtisadiyyatın tələbatlarına daha yaxşı cavab vermək, dövlət və özəl sektorlar arasında tərəfdaşlığı təşviq etmək üçün infrastrukturun da inkişafı nəzərdə tutulur. Bütün bunlar Sizin ölkənizlə apardığımız tərəfdaşlığın strateji prioritetləridir. Dövlət və özəl sektorlar arasında tərəfdaşlıq hökumətlə həyata keçirdiyimiz layihələrin əsas mövzusu kimi qalmaqdadır. İdarəçilik sahəsində olduqca fəal mövqedən çıxış etməliyik. Bu sahəyə xarici borcun ümumi daxili məhsula nisbəti məsələsi aiddir və bu nisbət gözlənildiyindən daha sürətli templə azalmaqdadır. Mən mövqeyinizi tam anlayıram ki, Siz innovativ, tam yeni texnoloji layihələrə sərmayələrin yatırılmasını dəstəkləyirsiniz. Bundan irəli gələrək, rəhbərlik etdiyim heyət əlindən gələni edir ki, bütün həmin layihələrin hiss olunan nəticələri yüksək texnologiyalar sahəsində olsun. İstərdik ki, onların hökumətin strateji hesab etdiyi sahələrə böyük təsiri özünü göstərsin. Məsələn, su ehtiyatları, idarəçilik, maliyyə, enerji səmərəliliyi və digər sahələr.

Bir sözlə, yuxarıda qeyd olunanlardan irəli gələrək və hökumət orqanları ilə məsləhətləşərək, mənim əməkdaşlarım bir sıra sənədləri hazırlayıblar. Birincisi, cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, suvarma və drenaj sistemlərinin inkişaf etdirilməsi layihəsi xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, ikincisi, peşə təhsili və ticarətin liberallaşdırılması da nəzərdə tutduğumuz proqramın bir hissəsidir. Nəhayət, üçüncüsü katalizator rolunu oynayacaq kiçik və orta sahibkarlığın maliyyələşdirilməsidir. Biz, həmçinin elektrik enerjisinin paylanması sahəsində götürdüyümüz öhdəliklərə sadiq qalırıq. Bu məqsədlə, elektrik şəbəkəsinin təkmilləşdirilməsinə sərmayə proqramı nəzərdə tutulur. Əgər Sizin hökumət müsbət qərar verərsə, bu proqramlar icra oluna bilər.

Cənab Prezident, Siz, həmçinin Cənub Qaz Dəhlizi layihəsini qeyd etdiniz. Mən bu layihənin əsas mərhələlərinin başa çatması münasibətilə Sizi təbrik edirəm. Asiya İnkişaf Bankı da bu layihənin cari il ərzində tam başa çatdırılması məqsədilə maliyyə dəstəyini davam etdirəcək.

Sonra bankın Mərkəzi və Qərbi Asiya departamentinin baş direktoru Verner Lipax çıxış edərək dedi: Təşəkkür edirəm, cənab Prezident. Burada olmağıma çox şadam. İcazənizlə xatırladım ki, biz Sizinlə 2018-ci ildə görüşmüşük. Həmin vaxt Siz bizi kənd təsərrüfatı torpaqlarında suvarmanın yüksək texnologiyalarını tətbiq etməyə dəvət etdiniz. Siz Asiya İnkişaf Bankının Naxçıvan Muxtar Respublikasında aparılan işlərə verdiyi töhfəsini qeyd etdiniz. Bunun əsasında, biz Naxçıvanda suvarma sistemlərinin inkişaf layihəsini hazırlamağa başladıq. Bu ilin yanvar ayında suvarma sistemlərinin texniki əsaslandırılması məqsədilə 1,2 milyon dollar həcmində qrant ayrılmışdır. May ayında biz bu sənədi Sizin Sərəncamınızla 2020-ci ilin aprel ayında yaradılmış Dövlət Su Ehtiyatları Komissiyasına rəy almaq üçün təqdim etmişik. Əslində, bu layihə su kanallarında geomembran texnologiyasının tətbiqini, kanal istiqamətinin seçilməsində Coğrafi İnformasiya Sistemindən istifadəni, nəzarət qurğularını və məlumat bazasının qurulmasını, o cümlədən SKADA sistemindən istifadəni nəzərdə tutur. Həmçinin kənardan idarə edilməsi, peyklə baxış üsulu ilə suyun məhsuldarlığı və sistemin işləməsi də sınaqdan keçiriləcək. Bütün bu işlər torpaqların şoranlaşmasının azaldılmasına və kənd təsərrüfatında məhsuldarlığın artırılmasına yönəlib.

Verner Lipax peşə təhsili sistemində ölkəmizlə əməkdaşlığın genişləndirilməsi sahəsində görülən tədbirlərdən danışdı. Qeyd etdi ki, bu ilin fevralında peşə təhsilinin inkişafı ilə bağlı təklif edilmiş proqram Dördüncü Sənaye İnqilabına uyğunlaşmaq baxımından seçilmiş sənaye sahələrinə və peşə bacarıqlarının formalaşdırılmasına yönəlir. Bu, həm də Davosda əldə olunmuş razılıq əsasında Bakıda Dördüncü Sənaye İnqilabının regional mərkəzinin yaradılması ideyası ilə üst-üstə düşür. Daha sonra o, kiçik və orta müəssisələr üçün maliyyə işlərinin tənzimlənməsi layihəsi barədə danışdı və bildirdi ki, kiçik şirkətlərin həvəsləndirilməsi, onların maliyyəyə çıxışının təkmilləşdirilməsi üçün hökumət ilkin mərhələ üzrə maliyyələşdirmə portfelini hazırlaya bilər. Verner Lipax bu məqsədlə hökumətə pul vəsaitləri ayırmalarının və həmin kreditlər portfelinin yerli valyuta ilə, yəni, manatla formalaşdırılmasının mümkünlüyünü vurğuladı.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Burada qaldırılmış bütün məsələlər böyük əhəmiyyətə malikdir və mən onların bəziləri ilə bağlı şərhlərimi bildirəcəyəm. Peşə təlimi ilə bağlı məsələlər üzərində uğurla irəlilədiyimizdən məmnunam. Bu, bizim üçün prioritet məsələlərdən biridir. Biz artıq bəzi ölkələrlə təmaslar yaratmışıq və bəzi layihələri icra etmişik. Biz Azərbaycanda binalar inşa etməklə, avadanlıq almaqla bütün infrastruktura sərmayə yatırmışıq və onlar da öz texnologiyalarını gətiriblər. Buna görə də xüsusilə indi, fəal sənaye inkişafını yaşadığımız bir dönəmdə yaxşı mütəxəssislərin hazırlanması böyük əhəmiyyətə malikdir. Bu ilin bir göstəricisini sizə deyə bilərəm. İlk dörd ay ərzində ümumi daxili məsul artımının çox az - 0,2 faiz olmasına baxmayaraq, həmin dörd ay ərzində bizdə qeyri-neft sənayesində 16 faizdən çox artım müşahidə olunmuşdur. Bu, həqiqətən onu göstərir ki, bizim sənayeləşmə, şaxələnmə və sənaye inkişafına təkan verən infrastruktura sərmayə üzrə səylərimiz həqiqətən yaxşı nəticələr verir. Buna görə də qeyri-enerji sektorunun sürətli artımı əminəm ki, davam edəcəkdir və bunun üçün də bizə bu biznesi apara bilən yaxşı mütəxəssislər lazım olacaqdır. Odur ki, mən peşə təlimi ilə məşğul olmağımızı çox dəstəkləyirəm və həmçinin kiçik və orta müəssisələrə yerli valyuta ilə dəstəyin göstərilməsi vasitəsilə özəl sektora dəstəyiniz də çox faydalıdır. Bildiyiniz kimi, bizim borcgötürmə ilə bağlı strategiyamız çox mühafizəkardır və bu, bizə öz milli valyutamızda borc götürməyə imkan verəcəkdir.Suvarma ilə bağlı məsələlərə gəldikdə, sizin mənim müraciətimə cavabınız üçün minnətdaram. Mənə verilən məlumata görə, Naxçıvandakı suvarma layihəsi indi artıq razılaşdırılmağa çox yaxındır. Mənə məlumat verildi ki, kreditin ümumi məbləği təqribən 100 milyon ABŞ dolları olacaqdır. Hesab edirəm ki, bu, Naxçıvanda kənd təsərrüfatının inkişafı üçün çox faydalı olacaqdır. Biz dövlət investisiya proqramı vasitəsilə Naxçıvanın irriqasiya sahəsində inkişafına hər il sərmayə yatırırıq. Lakin əlbəttə ki, əlavə vəsait, üstəgəl, sizin mütəxəssis təcrübəniz çox faydalı olacaqdır. Bundan əlavə, sizin bütün ölkə ərazisində suvarma ilə bağlı planlarımızı nəzərdən keçirməyinizi istərdim. Biz hazırda vəziyyəti qiymətləndiririk və çox böyük su itkiləri ilə üzləşdiyimizi görürük. Bəzi hallarda köhnəlmiş infrastruktura və səmərəli olmayan su idarəetmə sisteminə görə biz suyun 40-50 faizini itiririk. Buna görə də müxtəlif nazirlərin təmsil olunduğu və Baş Nazirin müavininin rəhbərlik etdiyi, digər nümayəndələrin iştirak edəcəyi xüsusi hökumət komissiyası yaradılmışdır. Onlar bizim bütöv su potensialımızı qiymətləndirəcək və prioritetləri, hansı işləri görməli və hansı investisiyaları yatırmalı olduğumuzu müəyyən edəcəklər. Buna görə sizdən bu layihəni nəzərdən keçirməyi xahiş etmək istərdim. Ümidvaram ki, bir neçə aydan sonra bu komissiyanın fəaliyyətinin ilk nəticələri bizdə olacaq. Biz suvarmanın inkişafı üzrə dövlət proqramının qəbul edilməsi və suvarmanın daha da səmərəli olması ilə nəticələnəcək addımları müəyyən etməyə başlaya bilərik. Buna görə də texniki dəstək və maliyyə dəstəyi baxımından biz bu məsələ üzərində sizinlə çalışmağa məmnun olarıq.

Bu gün toxunmaq istədiyim digər bir məsələ, - siz artıq onu qeyd etdiniz, - enerji səmərəliliyi məsələsidir. Biz indi iki şirkətdə Azərenerji və Azərişıqda bu işləri aparırıq. Bu il və ötən il yatırılmış müəyyən investisiyalara görə Azərenerji minimum 600 meqavat səviyyəsində mövcud elektrik enerjisi stansiyalarının məhsuldarlığını artıra bilmişdir və bu proses davam edir. Bizim ən böyük və Qafqazda ən böyük olan Mingəçevir elektrik stansiyamız tamamilə bərpa edilmişdir və ola bilsin ki, 1 və ya 2 ay müddətində bərpa işlərindən sonra açılacaqdır. Bundan əlavə, biz hazırda bərpa olunan enerji mənbələri üzərində fəal şəkildə işləyirik və bu sahədə fəaliyyət göstərən iki böyük şirkətlə bu ilin yanvar ayında artıq iki ilkin müqavilə imzalanmışdır. Ümumi enerji hasilatının həcmi 400 meqavat olacaqdır. İnvestisiya tamamilə xaricdən gələcəkdir və Günəş və küləklə işləyən iki elektrik stansiyası olacaqdır. Buna görə də kifayət qədər Günəş və külək mənbəyinə malik olduğumuzu nəzərə alaraq enerjinin bu sektorunu inkişaf etdirmək üçün bizim planlarımız var. Ona görə də sizdən bu variantı da nəzərdən keçirməyi xahiş edərdim.

Həmçinin sizin də düzgün qeyd etdiyiniz kimi, Davos Dünya İqtisadi Forumu ilə bizim münasibətlərimiz indi yeni mərhələyə qədəm qoyub. Yanvar ayında cənab Börge Brende və mən Davosda Azərbaycanda region üzrə Dördüncü Sənaye İnqilabının regional habının yaradılması üzrə sənədi imzaladıq. Hesab edirəm ki, bu, bizim sənaye inkişafında gördüyümüz səylərin yaxşı qiymətləndirilməsinin bir nümunəsidir. Biz nəinki təkcə Azərbaycan üçün, eyni zamanda, region üçün çox güclü platformanın necə inkişaf etdirilməsi ilə bağlı sizinlə işləməyə hazırıq ki, çox imkanlar yaratmaq məqsədilə mövcud infrastrukturumuzdan, bağlılıqdan və Azərbaycanın coğrafi mövqeyindən istifadə etmək mümkün olsun.

Toxunmaq istədiyim digər bir məsələ budur ki, biz dəmir yolu layihəsi ilə bağlı artıq birlikdə işləmişik. Lakin biz indi Şimal-Cənub istiqamətində dəmir yolumuzun bərpa edilməsi prosesindəyik. Azərbaycan artıq bu dəhlizə böyük həcmdə sərmayə yatırmışdır. Onun çox böyük potensialı var. Biz artıq şimaldan - Rusiyadan daxil olan, Azərbaycan ərazisindən qərb və cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən başlayaraq Rusiya ilə sərhədə qədər dəmir yolumuzun keyfiyyəti yaxşı deyil. Buna görə də biz qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq. Çünki belə ola bilər ki, bütün yüklərin öhdəsindən gəlmək üçün bizim mövcud infrastrukturumuz kifayət etməyə bilər. Bu gün artıq bizim Rusiya ilə sərhədimizdə tıxaclar var. Çünki Azərbaycandan, həm də İrandan artan ixrac malların artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə Şimal-Cənub dəhlizinin bir hissəsi olacaq müasir dəmir yolu sistemi lazımdır. Mən sizdən bu layihəni də nəzərdən keçirməyi xahiş etmək istərdim. Gələcək kommunikasiya prosesində ola bilsin sizə hansı işlərin görüldüyü və bizim planlarımız ilə bağlı daha ətraflı məlumat veriləcəkdir.

Masatsuqu Asakava: Çox sağ olun cənab Prezident. Çox şadam ki, biz Asiya İnkişaf Bankının suvarma, peşə təhsili, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi layihələri vasitəsilə Azərbaycanın dayanıqlı inkişafına hansı şəkildə töhfə verəcəyi ilə bağlı eyni fikirdəyik. Cənab Prezident, Siz, həmçinin bərpa olunan enerjini qeyd etdiniz. Bu sahəyə də biz böyük töhfə vermək istərdik. Eyni zamanda, Siz dəmir yolu sisteminin bərpasını qeyd etdiniz. Asiya İnkişaf Bankının ciddi şəkildə hansı töhfə verə biləcəyi üzərində düşünəcəyik və qısa zamanda sizə cavab verəcəyik.

Verner Lipax: Bir sözlə, əvvəlki təcrübəmizə əsaslanaraq, yeni işləri icra edə bilərik. Fikrimcə, həmkarlarımız Sizinlə bu gündəliyin icrası üçün işləməkdən çox məmnun olardı. Sağ olun.

Prezident İlham Əliyev: Çox yaxşı.

Masatsuqu Asakava: Biz Azərbaycandakı vəziyyətlə bağlı çox faydalı müzakirə üçün olduqca minnətdarıq. Biz qadağalar aradan götürülən kimi mümkün qədər qısa müddətdə və Sizin vaxtınız olarsa, Azərbaycana səfər etməyi arzulayırıq.

Prezident İlham Əliyev: Çox sağ olun cənab prezident. Bu mühüm məsələlərlə bağlı sizinlə müzakirə aparmaq imkanına görə təşəkkür edirəm. Cənab prezident və iştirakçılar, əminəm ki, pandemiya bitən kimi bizə sizi Azərbaycanda qəbul etmək şərəfi nəsib olacaq. Mən sizi dəvət edirəm, bu məsələləri həll etməyə də sizi dəvət edirəm. Komandalarımız bu gün müzakirə etdiyimiz məsələlər üzərində çalışmağa davam edəcəklər. Çox sağ olun.

Masatsuqu Asakava: Sağ olun.

# Böyükdən çox uşaqların ayaq açdığı "mall"lar

***70** gün idi ki, bağlanmışdı. Alış-veriş mərkəzləri də, restoranlar da boş idi. Nazirlər Kabineti yanındakı Operativ Qərargahın qərarı ilə bu gündən "mall"ar fəaliyyətə başladı. Alış-veriş və əyləncə mərkəzlərində son durumu öz gözlərimizlə görmək üçün bu sabah yolumuzu "mall"lardan saldıq.*



Hafta.az-ın obyektivindən olub-bitənlərə şahid olmaq istəyirsinizsə, monitora bir qədər də yaxın əyləşin. Sizə hardan deyim, "Gənclik Mall"dan. Yolumuzu ilk saldığımız məkan bura idi. Girişdə ağızı maskalı mühafizəçilər dayanıb. Çantaları yoxlamaq öz yerində, bu köhnə işləridir, indi də xəbərdarlıq edirlər. Daha dəqiq desək, tibbi maska olmadan adamları "mall"ın ərazisinə buraxmırlar.

Üstəlik, maska yarımçıq taxılıbsa, yəni, burun hissəsini örtmürsə, kimliyindən asılı olmayaraq, xəbərdarlıq edilir. Tibbi maskası olmayanlar isə ümumiyyətlə alış-veriş və əyləncə məkanlarına buraxılmır. Hələ xəbərdarlıq da edilir ki, 100 manat cəriməsi var. Söhbətin axırını əvvəldən deyim ki, "mall"dan çıxanda da eyni durumdur. Mühafizəçilər adamları xəbərdarlıq etdikdən sonra buraxırlar. Amma hələ ki, şifahi formada... İçəri keçirik. Bizi soluq bənizli mağazalar qarşılayır. Ərzaq mağazalarından fərqli olaraq, geyim və aksessuar köşklərində seyrəklik müşahidə olunur. Bir-iki mağazada diqqətimizi müəyyən nüanslar çəkdi. Adamlar ara məsafəsini qorumaqla içəri daxil olurdular.

Daha doğrusu, bunu tənzimləyən mağaza işçisi idi. Özü də əlində tibbi spirt vardı. Adamların əllərini spirtlədikdən sonra içəri buraxırdı. Açığını desək, buna hər mağazanın önündə rast gəlmədik. İşini sağlama alanlar da az deyildi.

**Reportaj**

Başqa bir məsələ isə içəridən maska ilə keçən adamlar eskolatorda maskaları yarıya qədər endirir, bir-biri ilə söhbət etməyə başlayırdılar.



"Mall"ın içərisindəki nəzarətçilər isə girişdəki qədər tələbkar görünmürdülər.

Kişi geyimləri satılan mağazalar boş idi... Adamlar az-az gəlirdilər. Qadın mağazalarında isə durum fərqlidir. Azyaşlı, məktəbli uşaqlarla ağzına qədər dolu olan paltar mağazalarının sayı az deyildi. Paltar almaq üçün gələnlər də vardı, sadəcə, baxıb bayıra əliboş çıxanlar da...

Alış-veriş mərkəzlərindən fərqli olaraq çay və kofe təklif olunan stollarda sıxlıq müşahidə olunurdu. Adamlar çox idi.

Diqqətçəkən məqamlardan biri də böyüklərdən çox uşaqların olması idi. Demək olar ki, uşaq əlindən tərpənmək mümkün deyildi. İş o yerə çatmışdı ki, gənc valideynlər azyaşlı və məktəbli uşaqları başlı-başına buraxmışdılar. Ortalığı qarışdırmaqla məşğul idilər. Şıltaqlıqlarından qalmırdılar. Elə yemək və "fast-food" brendlərinin də önündə növbə çox idi. Bundan başqa, ara məsafələri də gözlənilmirdi. Əməlli-başlı basabas var idi. Uşaqların, bəzi hallarda böyüklərin də ağızlarındakı maskalar tam olaraq örtülməmişdi. İnsanlar ağız-ağıza söhbət edirdi. Hətta bir məqamda yaşlı bir müəllimə arxadan valideynlərə dilləndi ki, uşaqları sıxlıqdan kənarda tutsunlar:

- Dövlət məktəbləri bağlayıb. Uşaqların təhlükəsizliyini qoruyur. Bunlar da uşaqları yeyib-içməyə gətirir.

"Gənclik Mall"dan ayrılarkən çıxışa yaxın hissədə kitab mağazasının yanından keçdim. İçəridə bayaqkı məktəbli uşaqları görmədim, nə də valideynlərini... Bir-iki nəfər var idi, vəssalam...

"28 Mall"da da aşağı-yuxarı vəziyyət eyni idi. Uşaqlar böyüklərdən çox idi. Valideynlər iş günü olmasına baxmayaraq, övladlarının əlindən tutub malla gətirmişdilər. Onlardan bəziləri övladları üçün "kids shop" mağazalarına girir, bəziləri də kofe və ya çay sifarişi verirdilər. Stolların demək olar ki, əksəriyyəti tutulmuşdu. Bu, mərtəbələrə görə dəyişirdi. Bəzi mərtəbələrdə süstlük hökm sürürdü.

Kişi paltarları satan mağazalar burada da "işləmirdi", seyrəklik vardı. Sinemaların və "fast-food"ların önündə isə adamlar çox idi. Aksessur mağazalarının önü də seyrəklik "qoxuyurdu". Əsasən, yeniyetmə yaşında olan məktəblilər mərtəbələrin başına dolanır, eskolatorda bir-birləri ilə zarafatlaşırdılar. Girişdə ağızlarına taxdıqları tibbi maskaları da əllərində...

Unutmamışkən deyim ki, binanın girişində mühafizəçilər ayıq-sayıq idilər. Qadın və kişi mühafizəçilər öz həmcinslərinə tapşırırdılar, hətta xəbərdarlıq edirdilər ki, maskaları taxsınlar. Ağızlarında tibbi maska olmayanlar da vəziyyətin ciddiliyini görüb, bəzi hallarda heç "mall"a daxil olmurdular. Yuxarı mərtəbələrdəki mühafizəçilər də ara-sıra insanlara xəbərdarlıq edirdilər ki, maskaları tam olaraq taxsınlar. Yuxarı mərtəbələrdə daha çox sıxlıq müşahidə olunurdu. Bəzi hallarda yeniyetmə məktəblilər öz həmyaşıdları ilə "fast-food" sifarişlər verir, əylənirdilər. Yenə də ara məsafəsinə fikir verilmirdi.

Restoranlarda isə vəziyyət bir qədər fərqlidir. Girişdə tibbi spirtlə gülərüz xanımlar dayanır. Əsasən, "fast-food" yeməkləri və qəlyanaltılar təklif edən bu restoranlarda xanımlar içəri daxil olan müştəriləri tibbi spirtlə "salamladıqdan" sonra, ağızlarında tibbi maska olmaq şərti ilə içəriyə buraxırdılar. Stolların düzülüşündə də ara məsafəsi gözlənilirdi. Hiss olunurdu ki, 2-3 metrlik məsafədən bir qoyulub. Amma burada da böyüklərdən çox uşaq və yeniyetmələr gözə dəyirdi. Bir ana yanında iki, üç uşaqla restoranların qapısından içəri keçirdi. Amma "Mall"lardan fərqli olaraq restoranlarda uşaqlar tibbi maskaları çıxarmağa elə də həvəsli deyildilər.



Bəzi hallarda restoranlarda ara məsafəsi olmasına baxmayaraq, seyrəklik də müşahidə olunurdu. İstənilən halda 70 gün sonra gördüyümüz məsuliyyətsizlik mənzərəsi yenə də dəyişməmişdi... İnsanlar məsuliyyətsizliyi ilə milyonlarla insanın sağlamlığını təhdid edən koronavirus pandemiyasına kor-koranə "meydan oxuyur"dular.

✍ ***Tural***

# Azərbaycan səfirliyi və SOCAR aztəminatlı ailələrə yardım göstərib

**Gürcüstan həmişə Azərbaycan üçün vacib ölkə olub. Xeyli məsafədə həmsərhəddir, orada yarım milyon soydaşımız yaşayır, eyni zamanda, tarixən bəxti-taleyi də eyni olub. Bu gün Azərbaycan kimi, Gürcüstanın da torpaqları separatçılar tərəfindən parçalanıb. İndi də artıq neçə aydır dünyanı bürüyən koronavirus pandemiyası da ölkələrimizi sınağa çəkməkdədir.**

Alqışalayiq haldır ki, Gürcüstan Qafqazda, hətta region ölkələri ilə müqayisədə koronavirusa yoluxma sayına görə ən az statistikaya malikdir. Məsələn, Gürcüstandakı yoluxma və ölüm faktı Azərbaycanla müqayisədə, təxminən, dörd dəfə aşağıdır. Maraqlıdır, bu ölkə özünü necə qoruya bilib pandemiyadan, ümumiyyətlə, pandemiya şəraitində orada vəziyyət necədir? Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubovla söhbətləşdik. Gəlin birlikdə oxuyaq görək nə deyib:

- Gürcüstanda yoluxma sayının az olması hökumətin daha çevik tərpənməsi ilə əlaqədardır. Çində belə bir virusun ortaya çıxması haqda xəbərlər yayılanda, artıq Gürcüstan hökuməti qabaqlayacı tədbirlər görməyə başlamışdı. Sonra da ki, Gürcüstanda səhiyyə sistemi çox yüksək inkişaf edib və bu da pandemiya şəraitində öz bəhrəsini verir. Burada xəstəxanaların sayı kifayət qədərdir, ixtisaslı virusoloq həkimlərimiz yetərincədir.

***- Necə bilirsiniz, Gürcüstanı regionlara bölsək, yoluxma və ölüm sayı daha çox hansı bölgələrin payına düşür, bu yönümdə hər hansı statistika verilirmi?***

- Dəqiq və konkret rəqəm deyə bilmərəm. Onu bilirəm ki, Gürcüstan hökuməti ilk gündən hansı bölgədəki virus yayılmağa başlamışdı, həmin yerlərdə karantin elan etdi, ora giriş-çıxışı yasaqladı. Əlbəttə, bu ölkənin hər yerinə aid deyil. Məsələn, Kaxetiya bölgəsində, demək olar ki, yoluxma halı qeydə alınmayıb. Tiflisdə, Acarıstanda, Rustavidə və sair yerlərdə daha çox yoluxma faktı məlumdur. Borçalı bölgəsində də, Azərbaycan və Ermənistanla həmsərhəddir, üstəlik, İrandan da gələnlər vardı deyə, virusa yoluxma halları çox olub.

***- Gürcüstanda çox sayda azərbaycanlı yaşayır. Əvvəla, hazırda onların bütün ölkə üzrə sayı nə qədərdir və pandemiya onlara necə təsir edib: ziyan çoxdurmu, yoluxan və ölənlər arasında sizcə neçə nəfər azərbaycanlı olar?***

- Bildiyimizə görə, Gürcüstanda yarım milyonadək azərbaycanlı yaşayır. Təbii ki, pandemiyadan onlar da təsirləniblər. Şəxsən məndə olan məlumata görə, bir azərbaycanlımız bu virusun qurbanı olub, bəlkə də iki nəfər. Onu dəqiq bilirəm ki, virusa yoluxan bir neçə azərbaycanlı sağalaraq evlərinə qayıdıb.

***- Araşdırsaq, ölkənizdə xeyli sayda milli təşkilatlarımız var. İndiki pandemik şəraitdə həmin təşkilatlar azərbaycanlıların maarifləndirilməsi, hər hansı formada gündəlik sosial ehtiyaclarının ödənilməsi və sair şəklində addım atıblarmı? Ola bilər ki, Azərbaycan təşkilatları hansısa kasıb insanlara ərzaq, maddi vəsait və sair formada dəstək vermiş olsun...***

- Əlbəttə ki, Gürcüstan cəmiyyətinin bir hissəsi olan biz azərbaycanlılara məxsus siyasi-ictimai təşkilatlar, media orqanları və sair pandemiyanın ilk günündən soydaşlarımızı marifləndirməklə məşğuldur. Şəxsən rəhbəri olduğum Gürcüstan Azərbaycanlıları Konqresi dövlətin pandemiya ilə bağlı qəbul etdiyi bütün qərarların mətnlərini azərbaycancaya tərcümə edərək soydaşlarımız arasında paylayıb. Konqresimizin əksər kəndlərdəki nümayəndəlikləri bu işdə çox fəal rol oynayıblar. Bununla yanaşı, bir sıra təşkilatlarımız, o cümlədən, Gürcüstan Azərbaycanlıları Konqresi imkansız ailələrə ərzaq yardımı paylayıb. Belə demək mümkündürsə, əlimizdən nə gəlirsə, etməyə çalışmışıq.

***- Gürcüstan azərbaycanlıları bu ölkənin qanuni vətəndaşları olduğu üçün əlbəttə ki, məsuliyyəti də öz hökumətiniz daşıyır. Buna baxmayaraq, Azərbaycanın Gürcüstandakı səfirliyi siz soydaşlarımızın vəziyyəti ilə maraqlanırmı, milli təşkilatların rəhbərləri ilə hər hansı formada görüş, müzakirə filan aparılıbmı?***



**Hüseyn Yusubov,**
Gürcüstan Azərbaycanlıları Konqresinin sədri

- Bilirsiniz, biz azərbaycanlılar da Gürcüstan dövlətinin tam bərabərhüquqlu vətəndaşlarıyıq. Bu baxımdan dövlətin bütün xalq üçün nəzərdə tutduğu yardımlardan azərbaycanlılar da faydalanıb. Dövlət təkcə ərzaq paylamayıb, aşağı gəlirli ailələrə maddi dəstək də verib və sair. Azərbaycan isə yaxın və böyük qonşu, strateji tərəfdaş olaraq bu məsələdə ilk gündən Gürcüstanın yanında olub.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov bir sıra bölgələrə baş çəkərək, insanlarla görüşüb, onlara yardım göstərib. O cümlədən, SOCAR-ın əməkdaşları da. Onu da qeyd edim ki, istər səfirliyimiz, istərsə də SOCAR, yalnız azərbaycanlılara deyil, millətindən asılı olmayaraq bütün ölkə vətəndaşların yardım göstəriblər.

***- Ümumdünya Səhiyyə Təşkilatının saytına baxıram, Gürcüstan pandemiyadan əziyyət çəkən 200 ölkənin siyahısında 118-ci yerdə qərarlaşıb. Bu isə o deməkdir ki, ölkənizdə vəziyyət o qədər də ağır deyil. Bu vəziyyətə görə səhiyyənizin inkişaf etməsinə borclusunuz, yoxsa hökumətin daha çevik və məqsədli planlar həyat keçirməsinə? Ya da ola bilər ki, gürcülər daha nizamlıdırlar, özlərini qoruya biliblər...***

- Gürcüstanın bu sahədə belə böyük uğur qazanmasının əsas səbəbkarları həkimlərimizdir. Eyni zamanda, ilk gündən hökumət rəsmilərinin, elm adamlarının və tibb mütəxəssislərinin daxil olduğu Koordinasiya Şurası yaradılıb ki, bütün qərarlar orada verilib. Hətta deyərdim ki, bir müddət ölkəni məhz həmin Şura idarə edib. O cümlədən, Nazirlər Kabineti də Koordinasiya Şurasının qəbul etdiyi qərarlar əsasında fəaliyyət göstərib. Çox ciddi nəzarət mexanizmi yaradılmışdı və biz bütün bunlar üçün minnətdarıq hökumətimizə.

Bu yerdə xatırladım ki, ilk aylar xalqımız üçün çox ağır keçib. Amma hər zaman dövlət vətəndaşının yanında olub. Bu prosesdə bələdiyyələrə əhsən deməliyəm. Çünki bütün şəhər və kənd bələdiyyələri mütəmadi şəkildə ailələrlə maraqlanıb, ərzaq və sair yardım ediblər. Gürcüstandakı din sektoru da, o cümlədən, Gürcüstan Müsəlmanları İdarəsi insanlara ərzaq yardımı paylayıb.

***- Gürcüstan pandemiyadan qorunmaq üçün hansı ölkələrdən tibbi və sair dəstək almaqdadır? Azərbaycan dövləti sizə hər hansı formada yardım edibmi və ya bu xüsusda Azərbaycandan gözləntiləriniz varmı?***

- Pandemiya dövründə Gürcüstan Türkiyə və Azərbaycanla sıx əməkdaşlıq edib. Bununla yanaşı, ABŞ və Avropa İttifaqından bizə pandemiya ilə mübarizə məqsədilə davamlı maddi dəstək verilib. Bildiyim qədər, elə indi də Avropa İttifaqı tərəfindən köməklik göstərilməkdədir.

✍ ***Vüsal***

## GÜNÜN TƏZADLARI

### Azərbaycanda şəhərin mərkəzində ayı göründü



■ **Mayın 30-dan 31-nə keçən gecə saat 4 radələrində Şəki şəhərinin mərkəzində qonur ayının hərəkət etdiyi müşahidə olundu.**

Hafta.az yazır ki, bu barədə "Report"a Şəki Regional Ekologiya İdarəsindən məlumat verilib. Bildirilib ki, idarənin əməkdaşları polislə birgə ayının insanlar üçün təhlükə yaratmaması üçün tədbirlər görür, onun vəhşi təbiətə qaytarılması üsulları nəzərdən keçirilir:

"Vətəndaşlardan xahiş edilir ki, ehtiyatlı olsunlar, ayının müvəqqəti təcrid edildiyi Axundzadə prospektinin 20 Yanvar küçəsi ilə kəsişdiyi əraziyə yaxınlaşmasınlar".

### Bakıda maşın məşhur mağazaya girdi



■ **Paytaxtda maşın məşhur mağazaya çırpıldı. Hafta.az-ın xəbərinə görə, hadisə "Soliton" mağazalar şəbəkəsinin Məhəmməd Hadi küçəsində yerləşən filialında baş verib.** 99 HC 885 dövlət nömrə nişanlı, "Opel" markalı avtomobilin sürücüsü idarəetməni itirərək, yoldan çıxıb və yol kənarında yerləşən mağazanın şüşəsini sındırıb. Hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerinə cəlb olunub.

### İran İsrailin içməli su sistemində xlorun miqdarını artırmağa çalışdı



■ **Bu il aprelin əvvəlində İran İsrailin su təchizatı sisteminə qarşı kiberhücum təşkil etdiyi bilindi.** Hafta.az xəbər verir ki, İsrail mediasının yazdığına görə, beynəlxalq KİV də bu barədə informasiya yayıb. İsrailin mərkəzindəki bələdiyyə su stansiyasılarından birində çalışanlar kompüter sistemlərində bir xəbərdarlıq görüblər. Əvvəlcə hər şey kifayət qədər zərərsiz görünüb - bir neçə nasos işini dayandırıb - bu cür qəzalar vaxtaşırı olur. "Financial Times" qəzetinin yazdığına görə, hücumun məqsədi İsrailin içməli su təchizatı sistemində xlorun səviyyəsini qaldırmaq olub.

"İran mənbəyini gizlətmək üçün kodu ABŞ və Avropadakı serverlər vasitəsilə göndərib. Və sonda o, nasosları idarə edən su stansiyasının idarəetmə sistemlərinə çatıb"- 4 İsrail nümayəndəsi və bir Qərb mənbəyi belə iddia edir.

Qərb mənbəyi daha sonra yazır: "İranın planı israillilərin hesab etdiyindən daha mürəkkəb və yaxşı düşünülmüşdü. Hücum təhlükəsizlik sensorlarını on minlərlə yaşayış binasına su təchizatını avtomatik olaraq bağlamağa məcbur etməli idi". "Hücum müvəffəq olsaydı, qızmar havalarının başladığı bir vaxtda İsraildə minlərlə mənzil su mənbələrindən təcrid oluna bilərdi. Ən pis vəziyyətdə yüzlərlə qurban olması mümkün idi. Hücum müvəffəqiyyətə çox yaxın olub. Ancaq sonda nədən uğursuza düçar olduğu aydın deyil...", - deyə mənbə vurğulayır.

### Çikaqoda etirazçılar polisin atını ələ keçirdi



■ **ABŞ-ın Çikaqo şəhərində (İllinoys ştatı) Corc Floydun polislər tərəfindən öldürülməsinə etiraz edən sakinlərdən biri hüquq-mühafizə orqanlarının kütləni dağıtmaq üçün istifadə etdiyi atı ələ keçirdi.** Hafta.az-ın verdiyi xəbərə görə, hadisəni lentə alan aksiya iştirakçılarından biri videonu sosial şəbəkələrdə paylaşıb. Qeyd edək ki, mayın 25-də internetdə afroamerikalı Corc Floydun saxlanılarkən polislər tərəfindən amansız rəftara məruz qalmasının görüntüləri yayımlanıb. Polis C.Floydun qoluna qandal vuraraq onu yerə yıxıb və sonra dizi ilə boynunu sıxıb.

Videoda Floydun nəfəs ala bilmədiyinə görə qışqırması, ancaq polisin buna əhəmiyyət verməməsi əks olunub. Hadisədən qısa müddət sonra saxlanan şəxs xəstəxanada ölüb. Baş verənlərdən hiddətlənən amerikalılar kütləvi etiraz aksiyaları təşkil ediblər.

### Bərdədə su kanalında 20 heyvan leşi tapıldı



■ **Bərdə rayonunda bir neçə kəndin suyundan istifadə etdiyi su kanalına heyvan leşləri atıldı. Hafta.az-ın yazdığına görə, leşlər kanalın Alpout kəndindən keçən hissəsində aşkarlanıb. Heyvanların müxtəlif xəstəliklərdən öldüyü ehtimal edilir.**

Kənd sakinləri bildirirlər ki, onlar kanalın suyundan suvarmada və mal-qara üçün istifadə edirlər. Kanal bir neçə kəndin ərazisindən keçir. Leşləri kanala kimlərin atdığı isə hələlik məlum deyil. Qeyd edək ki, leşlər cins heyvanlara aiddir.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi Bərdədə suvarma üçün nəzərdə tutulan Qarabağ kanalında aşkarlanan 20-yə yaxın ölmüş heyvanın cəmdəyi ilə bağlı araşdırmalara başlayıb. Qeyd olunub ki, məsələ ilə bağlı məlumat daxil olduqdan dərhal sonra, AQTA əməkdaşları araşdırmalara başlayıb: "Hazırda müvafiq qurumlarla birgə hadisənin baş vermə səbəbləri və digər istiqamətlərdə araşdırmalar aparılır. Araşdırmaların nəticələri ilə bağlı ətraflı məlumat veriləcək".

✍ ***Sultan Laçın***

# Sosial şəbəkələrin fəaliyyətinə "Tramp yanaşması"

***Dünyada əksər insanların koronavirus pandemiyası ilə bağlı xəbərləri izlədiyi bir vaxtda, anidən diqqət ABŞ prezidenti Donald Trampa yönəldi. Yüzmilyonlarla sosial şəbəkə istifadəçisi ABŞ Prezidentinin sosial media platformalarına "nəzarətin gücləndirilməsinə" dair sərəncam imzalaması ilə başlatdığı «müharibə»nin mahiyyətini anlamağa çalışır.***




Bu qərar sosial şəbəkələrin fəaliyyətinə necə təsir göstərəcək? İndi həmin yüz milyonları bu sual düşündürür. Eləcə də Azərbaycandakı sosial şəbəkə istifadəçilərini. Öncə hadisələrin xronikasına qısa nəzər salaq.

Prezident Tramp Oval ofisindəki brifinq zamanı sosial media şirkətlərini monopolist adlandırıb. Onların qəzet və telekanallardan daha nüfuzlu hala gədiyini deyib: "Biz bunun davam etməsinə imkan verə bilmərik. Bu, çox böyük ədalətsizlikdir».

Qeyd edək ki, Trampın məlum sərəncamı imzalamasının səbəbi bu həftənin əvvəlində onun yazdığı iki mesajı fakt yoxlanışından keçirən və bu barədə xəbərdarlıq qoyan Twitter-in addımı olub.

Bu sosial şəbəkə barədə danışan Tramp "Qanuni olaraq onu bağlamaq mümkün olsaydı, mən bunu edərdim" deyib. Prezidentin sözlərinə görə, Twitter, Google, Facebook və digər platformalar arbitrar şəkildə istədikləri postları araşdırır, digərlərini isə "siyasi fəallıq" nümunəsi olaraq qulaqardına vurmağa qərar verir.

«Amerikanın səsi»nin məlumatına görə, cümə günü səhər Twitter Trampın Minneapolisdəki etirazlar barədəki mesajlarına xəbərdarlıq qoyub. Tramp həmin tvitində etirazçıları zorakılıqları şərəfləndirməkdə ittiham edib, onları "qoluzorlu" adlandırıb. O, şəhərdə qarətlər davam edərsə, buna güllə ilə cavab veriləcəyini yazıb.

ABŞ-ın şimal-mərkəz şəhərində etirazlar ağdərili polis zabitinin zor tətbiq etməsi nəticəsində afro-amerikalı şəxsin ölməsindən sonra vüsət alıb.

### Bəs bu sərəncam nələri nəzərdə tutur?

**Qərar bəzi hallarda Facebook, Twitter və YouTube kimi onlayn platformalara hüquqi mühafizə verən ABŞ-ın "Rabitə Dürüstlüyü Qanununa" aydınlıq gətirmək məqsədini daşıyır.**

Qanunun 230-cu maddəsinə əsasən, sosial şəbəkələr istifadəçilər tərəfindən yerləşdirilən məzmuna görə məsuliyyət daşımır, əksinə ədəbsiz, təcavüzə səsləyən və ya zorakı məzmunu silmək kimi işlə məşğul ola bilərlər.

Hazırkı qanuna görə sosial media platformaları hüquqi məsuliyyət daşıyan "yayımçı" deyillər və fərman qüvvəyə minərsə, belə platformalar istifadəçilərin yüklədikləri məlumatlara görə "məsuliyyət" daşımalı olacaqlar.

### Trampın qərarı doğrudumu?

**Əvvəldə də vurğuladığımız kimi, ABŞ Prezidentinin belə bir sərəncam imzalaması ölkədə yaşanan son iğtişaşların fonunda baş verib. Yəni artıq sosial şəbəkələrin fəaliyyəti ABŞ-ın təhlükəsizliyini təhdid etməyə başlayıb.**

Əslində isə, hadisələrin bu formada inkişafının səbəbləri daha dərindədir. Belə ki, 90-cı illərdə sosial şəbəkələr yarandıqları zaman onlar tam bitərəf formada fəaliyyət göstərməli idilər. Lakin onların imkanları artdıqca, maliyyə resursları genişləndikcə sosial şəbəkə sahibi olan şirkətlər artıq bitərəflilik prinsipini pozaraq siyasi manipulyasiyalara əl atmağa, daha çox gəlir əldə etmək üçün müəyyən separatçı qrupların ayrı-ayrı dövlətlərə qarşı informasiya təbliğatı aparmasına şərait yaratmağa başladılar. Bu səbəbdən dövlətlərin rəhbərlikləri ilə sosial şəbəkə şirkətlərinin sahiblərinin münaqişəsi qaçılmaz hal alıb.

Mövcud qanunvericilik bu şəbəkə sahiblərinin heç bir məsuliyyət daşımadan özlərinin daxili qaydalarını hazırlayaraq bitərəflilik prinsipinə zidd şəkildə ayrı-ayrı dövlətlər və ya şəxslərə qarşı qərar qəbul etməyə imkan verir.

Sosial şəbəkələrin tətbiq etdikləri bir çox məhdudlaşdırıcı tədbirlər sırf siyasi motivlidir və fikir plüralizminə ziddir. Onlayn platformaların fəaliyyəti şəffaf və hesabatlı deyil, onlar fikir azadlığını qorumaq üçün universal normativ standartlara və alətlərə malik deyillər. Sosial şəbəkələrin yarandığı ABŞ-ın özündə də onların yaratdıqları təhdidin miqyasının nə dərəcədə böyük olduğunu anlayırlar. Səsləndirilən bəyanatlardan da görünür ki, Amerikanın siyasi palitrasının böyük əksəriyyəti Trampın bu qərarını dəstəkləyir. Onlar da düşünürlər ki, sosial şəbəkələrin fəaliyyətinə nəzarət gücləndirilməlidir.

### Ekspertlər bu barədə nə düşünür?

**Rusiyalı politoloq Boris Mejuyevin qənaətincə, Trampın bu qərarı əslində düzgündür:** «Əgər şirkət hansısa sosial şəbəkə istifadəçisinə təsir etmək, onun mesajlarına, paylaşımlarına özü və maraqları naminə müəyyənləşdirdiyi kriteriyalar əsasında təsir göstərmək hüququna malikdirsə, dövlət də eyni addımı sosial şəbəkələrə qarşı atmaq hüququna malikdir. Təbii ki, bu cür addımlar hansısa etirazlara və reaksiyalara səbəb olur. Lakin Trampın bu qərarının sosial şəbəkələrin yürütdüyü siyasət nəzərindən yanaşdıqda tamamilə məntiqə uyğun olduğunu söyləyə bilərik».

Rusiyanın digər tanınmış ictimai-siyasi xadimi Mariya Butinin sözlərinə görə isə, ikili standartları bir kənara qoyaraq etiraf etmək lazımdır ki, sosial şəbəkələr, xüsusilə də Facebook və Youtube əslində KİV-dir. Bu isə öz növbəsində, onların üzərinə müəyyən vəzifələr qoyur.

Yeni statusda bu şirkətlər tək siyasi baxışlarına görə onların xoşuna gəlməyən paylaşımları silməməli, həm də sosial şəbəkələrdə çox geniş təmizləmə işləri aparmalıdırlar. İstənilən insan onun barəsində sosial şəbəkədə yayımlanan bir məqama görə bəyənmədiyi halda onun yığışdırılması ilə bağlı məhkəməyə müraciət edə bilər.

Trampın bu qərarı, artıq bir çox dünya dövlətlərində sosial şəbəkələrin fəaliyyətinə ciddi nəzarətin olması ilə bağlı çağırışlara yol açıb.

Rusiya Dövlət Dumasının deputatı Yevgeni Federovun qənaətincə, Rusiya da ölkə ərazisində onlayn məkanda baş verənlərə nəzarəti çoxdan ələ almalı idi:

«Biz Rusiya ərazisində Amerikanın sosial şəbəkələrinin öz istədikləri kimi fəaliyyət göstərdiklərini, senzura tətbiq etdiklərini görürük. YouTube-da Putinin koronavirusla bağlı müraciətinin bloklanmasının nələrə səbəb olduğunu görürük. Facebook da bu cür fəaliyyət göstərir. Onlar öz siyasətlərini yürüdürlər. Bu fəaliyyətlər tənzimlənməlidir. Çində artıq YouTube qadağan edilib».

Avropada bir sıra dövlətlər, o cümlədən Almaniya sosial şəbəkələrin zərərli təsirlərindən qorunmaq üçün məhdudlaşdırıcı qanunlar qəbul edib və proses sürətlə davam edir;

Sosial şəbəkələr barədə universal normativ standartların mövcud olmaması burada feyk məlumatların, mənəvi-əxlaqi normalara zidd materialların, terrora, zorakılığa çağırışların, qeyri-qanuni ticarətin və digər zərərli əməllərin geniş yayılmasına, ayrı-ayrı fərdlərə, şirkətlərə, ölkələrə qarşı kampaniyalar təşkil etməyə, siyasi kataklizmlər formalaşdırmağa şərait yaradır.

Rusiya Prezidentinin xüsusi nümayəndəsi Dmitri Peskov Tass agentliyinə məsələni şərh edərkən deyib ki, Trampın sosial şəbəkələrin fəaliyyətinin nizamlanmasının daha da sərtləşdirilməsinə dair qərarı onların bundan sonra fəaliyyətinə daha çox KİV prinsipləri ilə yanaşılması istiqamətində addım olacaq.

Peskov bildirib ki, sosial şəbəkələrin fəaliyyətinə KİV olaraq yanaşılması və nəzarətin bu istiqamətdə qurulması müəyyən vaxt alacaq. Yaxın illərdə biz sosial şəbəkələr haqqında da KİV-ə xarakterik olan qanunların qəbulunun şahidi olacağıq.

### Saxta "demokratlar"ın mövqeyi necə olacaq?

**Məlum qərarla bağlı digər mühüm məqam da diqqəti xüsusilə cəlb edir. Belə ki, sosial şəbəkələrə nəzarətin gücləndirilməsi ilə bağlı qərar məhz onların yarandığı bir ölkədə - ABŞ-da verilib.** Xatırladaq ki, vaxtilə bir sıra ölkələr bundan əvvəl sosial şəbəkələrlə bağlı bu cür qərarlar qəbul edəndə demokratiya və söz azadlığının boğulması kimi dəyərləndirilir, sanksiyalarla hədələnirdilər. İndi maraqlıdır, digərlərini demokratiyanı boğmaqda ittiham edən ABŞ-dakı bəzi siyasi dairələr və dünyaya demokratiya dərsi keçməyə çalışan təşkilatların mövqeyi necə olacaq?

Bu suala ən maraqlı cavablardan birini yenə də informasiya təhlükəsizliyi üzrə ekspert Yevgeni Yuşuk verib. Onun sözlərinə görə, rəsmi olaraq ABŞ-da bu qərar senzura yox, demokratiya və söz azadlığının qorunması kimi təqdim olunacaq:

«Hər kəsin söz azadlığı digərinin azadlıqlarına manəə yaratdığı yerdə qurtarır" tezisi önə sürüləcək. Ümumilikdə isə bu qərar artıq presedentdir. Digər dövlətlər də analoji qərarlar verəcəklər. Dünyanın bütün sivil ölkələrində sosial şəbəkələrdə yalan məlumat yayma, təhqir, cəmiyyəti zəhərləmə meylləri kimi hallara qarşı məsuliyyətə cəlb olunma tətbiq ediləcək".

### Azərbaycanda da hüquqi tənzimlənməyə ehtiyac var

**Bu gün ölkəmizdə də milyonlarla insan sosial şəbəkələrin fəal istifadəçisidir. Ölkəmizdə yaradılan şərait nəticəsində Azərbaycan əhalisinin 70 faizindən çoxunun internetə çıxışı var.**

Sosial şəbəkələrin fəaliyyətinə isə heç bir məhdudiyyət qoyulmayıb. Söz və məlumat almaq azadlığı ən yüksək səviyyədə təmin edilib və qorunur. Bu amilin milli təhlükəsizliyimizə bəzi təhdidlər yaratdığı da aşkardır. Əvvələ, onu qeyd edək ki, Azəbaycan 30 ilə yaxın bir müddətdir müharibə şəraitindədir. Torpaqlarımızın 20 faizi işğal edilib. Dövlət və cəmiyyət olaraq işğal faktı, Xocalı soyqırımı, milyondan artıq soydaşımızın hüquqlarının pozulmasına dair dünya ictimaiyyətini məlumatlandırmaq, haqq səsimizi beynəlxalq səviyyədə duyurmaq üçün fəal şəkildə iş aparırıq.

Bu haqq işimizin qarşısında dayanan ən böyük qüvvə isə güclü maliyyə və media imkanlarına malik olan erməni lobbisidir. Azərbaycanın diqqətini bu haqq işindən yayındırmaq üçün erməni lobbisinin dəstəklədikləri bir çox antiazərbaycan qüvvələr məhz sosial şəbəkələr vasitəsi ilə Azərbaycan daxilində ictimai-siyasi sabitliyi pozmaq, iğtişaşlar yaratmaq üçün gecə gündüz çalışırlar.

Azərbaycan dəfələrlə xarici anti-Azərbaycan qüvvələrinin sosial şəbəkələr, onlayn platformalar vasitəsilə qərəzli kampaniyalarına məruz qalıb, ölkəmizə qarşı ardıcıl terror çağırışları indi də davam edir.

Təəssüf ki, ölkə daxilində həmin mənfur qüvvələrə xidmət edənlər də az deyil. Yaxın keçmişimiz sosial şəbəkələrin təsii ilə sabitliyi pozmağa cəhd edənlərin ifşa olunmuş əməlləri ilə «zəngin»)ir. İnternet azadlığı heç bir halda digər azadlıqları məhdudlaşdırmamalıdır. Bu səbəbdən artıq bitərəflik prinsipini pozaraq dövlətimizə qarşı təhdidlər yaradan sosial şəbəkələrin Azərbaycanda da hüquqi cəhətdən tənzilənməsinə, bu sahədə çatışmazlıqların aradan qaldırılmasına ciddi zərurət var.

Sosial şəbəkələrlə bağlı beynəlxalq səviyyədə universal normativ hüquqi aktların hazırlanması və tətbiqi ilə bağlı müzakirələr getdiyi, ayrı-ayrı ölkələrdə qanunlara əlavələr olunduğu, yeni qanunların qəbuluna hazırlıqlar getdiyi bir vaxtda Azərbaycan bu qlobal prosesdən kənarda qalmamalı və ümumi işə öz töhfəsini verməlidir.

*Azad Əliyev*

# Nebraska ştatının qubernatoru 28 Mayı Azərbaycan Günü elan edib

**ABŞ-ın Nebraska ştatının qubernatoru Pit Rikets Azərbaycan Demokratik Respublikasının 102-ci ildönümü ilə əlaqədar olaraq rəsmi bəyannamə imzalayıb.**



Azərbaycan Respublikasının ABŞ-dakı Səfirliyindən hafta.az-a verilən məlumata görə, bəyannamədə 1918-ci il 28 may tarixində Müsəlman Şərqində ilk dünyəvi parlamentli respublika olan Azərbaycan Demokratik Respublikasının qurulması və dünyanın digər demokratik dövlətləri, o cümlədən ABŞ tərəfindən tanınması qeyd olunur. Sənəddə bildirilir ki, Azərbaycan Demokratik Respublikası müstəqilliyinin qısa müddət ərzində irqi, cinsi, etnik və ya dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər seçki hüququnu tanımaqla yanaşı müsəlman dünyasında ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsini təmin edib. P.Rikets Azərbaycan Demokratik Respublikasının 1920-ci ildə bolşeviklər tərəfindən işğal edildiyini, 1991-ci ildə isə yenidən öz müstəqilliyini bərpa etməyə nail olduğu vurğulayır. Bildirir ki, Azərbaycan son 29 il ərzində öz suverenlik və müstəqilliyini möhkəmləndirmiş və hazırda vacib əhəmiyyətli regionlardan olan Xəzər regionunda ABŞ-ın müttəfiqi və strateji tərəfdaşıdır. Bəyannamədə, bu il Azərbaycan Demokratik Respublikasının 102-ci illiyinin qeyd olunması ilə əlaqədar olaraq 28 may tarixində ABŞ-da və dünyanın digər yerlərində yaşayan Azərbaycanlılar tərəfindən Milli Gün olaraq qeyd ediləcəyi və öz əcdadlarının Qafqaz, Mərkəzi Asiya və Orta Şərqdə demokratiyanın yayılması üçün töhfələrini xatırlanacağı bildirilir.

Qubernator imzaladığı bəyannamədə 2020-ci il 28 may tarixini Nebraska ştatında Azərbaycan Milli Günü elan edir.

Qubernator P.Rikers bəyanatı Azərbaycan tərəfinə təqdim edilməsi üçün Nebraskanın dövlət katibi Robert Evnenə təqdim edib.

*Hafta.az*

BÖLGƏ

## NEFTÇALA rayon prokuroru işdən çıxarılıb

**Prokurorluq orqanlarının kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.** Baş Prokurorluqdan hafta.az-a verilən məlumata görə, Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə Bakı şəhər prokurorunun ictimaiyyətlə əlaqələr üzrə köməkçisi Tural Aslanov və Bakı şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Həsən Mahmudov tutduqları vəzifədən azad edilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük



prokuroru, Baş Prokurorluğun Kadrlar idarəsinin prokuroru Elxan Novruzov isə tutduğu vəzifədən azad edilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru vəzifələrinə təyin ediliblər. Bundan başqa, Baş prokurorun imzaladığı digər əmrlə Neftçala rayon prokuroru Aydın Əliyev tutduğu vəzifədən azad olunub.

## GƏNCƏDƏ gizli fəaliyyət göstərən tədris mərkəzi aşkarlanıb

**Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilən sanitar-karantin rejimi qaydalarının təmin olunması istiqamətində Gəncə Şəhər Baş Polis İdarəsinin və onun tabeli orqanlarının əməkdaşları tədbirləri davam etdirir.**



Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin Gəncə şəhərindəki regional qrupundan hafta.az-a verilən məlumata görə, BPİ-nin əməkdaşları inzibati ərazilərində xidmət aparan zamanı şəhərin Nizami rayonu ərazisində gizli şəkildə fəaliyyət göstərən özəl tədris mərkəzi aşkarlayıb. Dərhal polis əməkdaşları tərəfindən vətəndaş Fətəli Əliyevin icarə əsasında işlətdiyi "Disney_-kids_school" uşaq tədris mərkəzinin fəaliyyəti dayandırılıb.

Mərkəzdəki uşaqlar ailələrinə təhvil verilərək, valideynlərə övladlarına qarşı məsuliyyətli olmağı, sanitar-karantin rejiminin tələblərinin yerinə yetirilməsi barədə xəbərdarlıq edilib. F. Əliyev və mərkəzin digər əməkdaşları barədə qanunamüvafiq tədbir görülüb. Faktla bağlı araşdırmalar davam etdirilir.

## BƏRDƏDƏ dəhşətli qətl

**İyunun 1-də gecə saat 04 radələrində Bərdə rayonunun Alaçadırlı kəndi ərazisində iki şəxsin odlu silahla qətlə yetirilmiş meyitlərinin aşkarlanması barədə daxil olmuş məlumat əsasında prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirib.** Faktla bağlı Bərdə Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə) maddəsi ilə cinayət işi başlanıb.



Bərdə Rayon Prokurorluğunun hafta.az-a daxil olan məlumatında bildirilir ki, iş üzrə müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq-əməliyyat tədbirləri aparılıb. İlkin araşdırmalarla həmin gün saat 03 radələrində Alaçadırlı kəndində yaşayan Toğrul Zeynallının yaşadığı evdə qısqanclıq zəminində tüfəngdən atəş açmaqla anası Nəzirə Zeynalovanı, daha sonra yaşadıqları evdən təxminən 200 metr aralıda isə bacısı Əminə Zeynalovanı qəsdən öldürərək hadisə yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib. Hazırda cinayəti törətməkdə şübhəli bilinən Toğrul Zeynallının tutularaq istintaqa cəlb olunması, habelə hadisənin tərərrüatlarının tam, hərtərəfli və obyektiv araşdırılması istiqamətində təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## AĞSUDA bir ton çətənə kolu yandırılıb

**Ağsu Rayon Polis Şöbəsinin əməkdaşları "Xaş-Xaş-2020" əməliyyat-axtarış və profilaktik tədbirlər planına uyğun olaraq keçirilmiş əməliyyat tədbirləri nəticəsində rayonun Ərəbmehdibəy kəndi ərazisində yabanı halda bitmiş narkotik tərkibli çətənə bitkiləri aşkarlayıblar.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan hafta.az-a verilən məlumata görə, ümumi çəkisi 1 ton olan 2600 ədəd yabanı halda bitən çətənə kolları polis əməkdaşları tərəfindən kökündən çıxarılıb və yandırılaraq məhv edilib.

## Dünya enerji sənayesi böyük bir şok yaşayır

**Dünya enerji sənayesi böyük bir şok yaşayır. Bu sözləri Beynəlxalq Enerji Agentliyinin (IEA) icraçı direktoru Fatih Birol deyib.**

F.Birol qeyd edib: "Dünyada enerji sektoru investisiya baxımından böyük bir sarsıntı ilə üzləşib. Qlobal miqyasda enerji sərmayələri cari ildə keçən ilə nisbətən 20 faiz, yəni 400 milyard dollar azalacaq. Keçən ildən bəri dünya enerji büdcəsində 400 milyard dollarlıq azalma olub. Bu, tarixdə baş verməmiş hadisədir. Ən böyük "zərbə"ni isə neft və təbii qaz sənayesi alıb. Dünya enerji sənayesi investisiya baxımından böyük bir şoka məruz qalıb".

Avropada təbii qazın qiymətində böyük azalma olduğunu deyən F.Birol bildirib: "Təbii qazın qiyməti 1 dollardan da aşağı düşüb. Avropada təbii qazın qiymətinin minimuma enməsi vəziyyəti ilə qarşıqarşıyayıq. Çünki qitədə təbii qaz anbarları tamamilə dolub".

# Ekoloji mühitin qorunmasına diqqət artırılıb

## Abşeron yarımadasının 2020-2025-ci illər üçün yaşıllaşdırılması proqramına əsasən, 10 min hektaradək ərazinin yaşıllaşdırılması planlaşdırılır

***Son illərdə ölkəmizdə ekoloji mühitin daha da yaxşılaşdırılması üçün bir sıra kompleks addımlar atılır. Bu sahə daima dövlətin əsas prioritet elan etdiyi sahələrdəndir. Bu gün ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemə çevrilib. Sağlamlığımızı təmin etmək üçün ilk növbədə, təbiəti sağlamlaşdırmaq, ətraf mühiti qorumaq gərəkdir. Bunu hafta.az-a açıqlamasında Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Naqif Həmzəyev bildirib.***



Deputat qeyd edib ki, XX və XXI əsrlərdə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı, gələcəkdə bərpası mümkün olmayacaq təbii sərvətlərin həddindən artıq istismarı ətraf mühitə mənfi təsirini qaçılmaz edib. Qlobal ekoloji böhran, ətraf mühitlə bağlı problemlər bu gün bəşəriyyətin inkişafının ən vacib tələblərindən birinə çevrilib. Son illər sosial və iqtisadi inkişaf sahələrində kifayət qədər nailiyyətlər əldə edən ölkəmizdə ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması dövlət siyasətinin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissələrindən biridir.

O deyib: "Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi, təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq ölkəmizin ekoloji siyasətinin əsas istiqamətləridir. Unutmayaq ki, iqlim dəyişmələrinin təsirindən inkişaf səviyyəsindən asılı olmayaraq heç bir ölkə sığortalanmayıb. Təbiətdə baş verən ekstremal təbii fəlakətlərdən bunu əyani şəkildə müşahidə edirik. Bəşəriyyətin üzləşdiyi ən çətin problemlərdən biri olan qlobal iqlim dəyişmələrinin yaratdığı problemin qarşısının alınmasına yönələn birgə səylər hər zaman ölkəmiz tərəfindən dəstəklənib, vətəndaşlarımız bu sahədə öz fəallıqlarını nümayiş etdiriblər.

"Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir" - ulu öndər Heydər Əliyevin zamanında söylədiyi bu sözlər bu gündə öz aktuallığını qoruyub saxlayır. Dövlətimizin ekoloji siyasətinin, təbiətə dəyər verməsinin və ona qayğı ilə yanaşmasının bəhrəsidir ki, insanlar təbiətlə bir vəhdət şəklində yaşayır, təbiətimizi, zəngin flora və faunamızı qoruyur, ölkəmizin yaşıllıqlar diyarına çevrilməsi üçün əllərindən gələni edirlər".

Deputat qeyd edib ki, Ümummilli Liderimiz ekoloji problemlərin həlli yollarını da göstərib - təbii sərvətlərə qayğı ilə yanaşılmalı, planetin genefondu qorunmalı, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürməlidir. Onları yalnız birgə səylərlə həll etmək mümkündür.

"Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən ekoloji siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə təbiəti mühafizə sahəsində görülən işlər, bu sahəyə göstərilən dövlət qayğısı hər birimizdən təbiətə, torpağa, Vətənə qayğı və sevgi ilə yanaşmağı tələb edir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var. Müxtəlif vaxtlarda icra olunan ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə, ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir", - deyə o bildirib.

Milli Məclisin deputatı diqqətə çatdırıb ki, bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağacəkmə aksiyaları keçirilir, flora və faunanın genefondunun mühafizəsi üçün "Qırmızı Kitab" yaradılıb, nadir və nəsli kəsilməkdə olan növlərin tədqiqi üzrə mütəxəssislər mütəmadi monitorinqlər keçirirlər. Ölkəmizin hər yerində yaşıllıqların salınmasında, təmizlik işlərində vətəndaşlarımız fəallıq göstərirlər. Onların əkdikləri ağaclar təbiətə rəngarənglik, gözəllik, eyni zamanda, təmiz hava bəxş edir. Ətraf mühitdən, təbiətdən yararlanmaq hər bir vətəndaşın hüququ olduğu kimi, onu qorumaq, qayğısına qalmaq da hər birimizin vətəndaşlıq borcudur.

Xatırladaq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar çərçivəsində idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, optimallaşdırılmış və operativ fəaliyyətin həyata keçirilməsi məqsədilə nazirliyin strukturlarının yeni dövrün tələblərinə uyğunlaşdırılması prosesləri gedir. İndiki və gələcək nəsillərin sağlamlığının təmin edilməsi, sağlam ətraf mühitdə yaşaması, iqtisadi potensialın qorunması, təbii ehtiyatlardan səmərəli istifadə günün aktual məsələlərindəndir. Bu baxımdan Azərbaycan Respublikasının zəngin təbiətini qorumaq, bərpa etmək üçün yeni layihələrin həyata keçirilməsinə və ekoloji problemlərin həlli istiqamətində idarəetmə prosesində mövcud qabaqcıl informasiya texnologiyalarının tətbiqinə başlanılıb. Bir sıra xidmətlər "ASAN xidmət" vasitəsi ilə elektronlaşdırılıb, 2020-ci ildə nazirliyin göstərdiyi bütün xidmətlər üzrə elektronlaşma proqramı hazırlanır və həyata keçirilməsi nəzərdə tutulur.

Uzun illər ərzində neft sənayesinin fəaliyyətindən əmələ gəlmiş tullantılar Abşeron yarımadasında bir sıra ərazilərin çirklənməsinə səbəb olub. Çirklənmiş ərazilərin bərpası əhalinin sağlamlığı üçün risklərin azaldılması, Bakı şəhərinin və ətraf qəsəbələrin inkişafı, təmizlənmiş ərazilərin iqtisadi dövriyyəyə qaytarılması baxımından zəruridir. Bununla əlaqədar çirklənmiş ərazilərin qiymətləndirilməsi, təmizlənməsi üsullarını və gələcək istifadə təyinatını müəyyən etmək üçün inventarlaşdırma işləri aparılıb. Heydər Əliyev Beynəlxalq Aeroportu ətrafında və Suraxanı rayonunda ərazilər lay suları, neft, duz, yod və digər çirkləndiricilərdən təmizlənərək burada həmişəyaşıl ağac və kol növlərindən ibarət yaşıllıqlar salınıb. Eləcə də respublikanın magistral avtomobil yollarının mühafizə zolaqlarının külək və su eroziyasından mühafizəsi, estetik görünüşünün yaxşılaşdırılması məqsədilə yolların ətrafının yaşıllaşdırılması tədbirləri həyata keçirilir və qənaətcil suvarma şəbəkəsi qurulur. Abşeron yarımadasının 2020-2025-ci illər üçün yaşıllaşdırılması proqramına əsasən 10 min hektaradək ərazinin yaşıllaşdırılması planlaşdırılır.

Azmeşəli ölkə kimi meşələrin artırılması və mühafizəsi də prioritet istiqamətlərimizdəndir. 2019-cu ildə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyi münasibətilə keçirilən aksiyada ölkə üzrə bir gündə 650 min ağac əkilib.

Meşəsalma fəaliyyəti ilə yanaşı, meşələrin mühafizəsi tədbirləri də gücləndirilir, meşə və qeyri-meşə fondu torpaqlarında meyvə bağlarının salınması istiqamətində tədbirlər davam etdirilir. Meşə ilə örtülü ərazilərin dəqiqləşdirilməsi üçün beynəlxalq təcrübələr əsasında inventarlaşma işlərinə başlamışıq və 10 illik müddət üçün Milli Meşə Proqramı hazırlanıb.

✍ **Sevinc**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ekologiya və ətraf mühitin mühafizəsi

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Prokurorluğun şəhid əməkdaşlarının ailələrinə müavinət verilsin

**"1997-ci ilə qədər prokurorluğun şəhid olan əməkdaşlarının ailələrinə şəhidliklə bağlı müavinət verilsin". Bunu Milli Məclisin növbədənkənar sessiyasının ilk iclasında deputat Məlahət İbrahimqızı deyib.** O bildirib ki, onları sayı elə də çox deyil: "Cəmi 20 nəfərədək olar". M. İbrahimqızı qeyd edib ki, ölkə başçısının tez-tez İrəvan və Zəngəzurla bağlı xatırlamaları cəmiyyət üçün mesajdır: "Bu gün dövlət başçısına Qarabağla bağlı təzyiqlər var. Bu gün biz hamımız özümüzü zəngəzurlu, irəvanlı, göyçəli, qarabağlı hesab etməliyik". Millət vəkili onu da bildirib ki, təmsil etdiyim Nəsimi rayon ərazisində vaxtilə ulu öndərimiz Heydər Əliyevin göstərişi ilə 4-cü Mikrorayon ərazisində inşa edilmiş və açılış mərasimində də şəxsən Heydər Əliyevin iştirak etdiyi Nigar Rəfibəyli adına kitabxana və oradakı qiymətli kitablar acınacaqlı durumdadır: "Dəfələrlə Mədəniyyət Nazirliyinə müraciət etmişəm. Heç bir müsbət cavab yoxdur. Kitabxananın açılış mərasimində iştirak edən sakinlər Ulu öndərimizdən onlara əmanət qalmış bu kitabxananın təmir olunaraq yenidən onların istifadəsinə verilməsini xahiş edirlər. Aidiyyatı orqanları bu problemin həllinə çağırıram".



✍ **Hafta.az**

# İtalyan həkimlər koronavirusu daha ölümcül hesab etmədiklərini deyiblər

**İtalyan səhiyyəsi koronavirusun bu ölkədə əvvəlki kimi ölümcül olmadığını bəyan edir. Bunu Milandakı San-Rafael xəstəxanasının baş həkimi Alberto Zanqrilyo deyib. Bu xəstəxana virusun tüğyan etdiyi dövrdə ən çox xəstə qəbul edən xəstəxanalardan biri olub.**

Həkim bildirib ki, bu virus kliniki olaraq İtaliyada artıq mövcud deyil. Yeni yoluxmalar, demək olar ki, yoxdur. İtaliya koronavirusdan ən çox itki verən üçüncü, yoluxma üzrə isə altıncı ölkədir. İlk yoluxmadan bu günədək ölkə üzrə 33 min 415 min nəfər həyatını itirib.



# Sosial təminat sistemi ilə əhatə olunanların 600 mini uşaqlardır

**Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkəmizdə uşaqlara dövlət qayğısının ildən ilə artmasına, eyni zamanda, müvafiq kateqoriyalardan olan uşaqların sosial təminatının mütəmadi olaraq gücləndirilməsinə şərat yaradıb. Bu gün ölkəmizdə mövcud olan sosial təminat növlərinin bir hissəsi (10-dan çoxu) uşaqlarla bağlıdır.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, sağlamlıq imkanları məhdud uşaqlar, şəhid ailələrinin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl AES qəzası ilə əlaqədar I və II dərəcə əlilliyi olan olan, yaxud vəfat etmiş valideynlərin, beşdən çox uşağı olan qadınların, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları aylıq sosial müavinətlə təmin olunur. Hazırda 83 min ailə üzrə 350 mindən çox ailə üzvü ünvanlı dövlət sosial yardımı alır ki, onlardan 185 minə yaxını uşaqlardır. Həmin ailələrdəki 1 yaşadək uşaqlara aylıq müavinət də verilir.

Eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına aylıq sosial müavinət ödənilir. Yeni doğulan uşaqlara görə birdəfəlik müavinət, həmçinin Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına ildə bir dəfə birdəfəlik müavinət verilir. Ailə başçısını itirmiş ailələrə buna görə aylıq sosial müavinət və ya əmək pensiyası ödənilir ki, həmin ailələrin üzvlərinin onların 95 faizdən çoxunu uşaqlar təşkil edir. Bu uşaqlardan sağlamlıq imkanları məhdud olanlara 2020-ci ilin əvvəlindən ailə başçısını itirməyə görə müavinəti və ya ailə başçısını itirməyə görə pensiyanı sağlamlıq imkanları məhdudluğa görə müavinətlə birgə ala bilmək hüququ da verilib. Eyni zamanda sığortaolunanlara da üç yaşınadək uşaqlara qulluğa görə müavinət ödənilir.

Ümumilikdə sosial təminat növləri üzrə ödəniş edilənlərin 600 minə qədərini uşaqlar təşkil edir. 2019-cu ildə dövlət başçısının Fərmanları ilə bu ödənişlər ciddi şəkildə artırılıb. O cümlədən, sağlamlıq imkanları məhdud uşaqlar üçün müavinətin 82 manatdan 150 manata çatdırılmaqla, onlara qulluq edənlər üçün Prezidentin aylıq təqaüdü (50 manat) təsis edilib. Beşdən çox uşağı olan qadınların hər uşağına görə müavinət 33 manatdan 55 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün hər uşağa görə müavinət 68 manatdan 100 manata, qəyyumlar üçün müavinət hər uşağa görə 61 manatdan 100 manata, ailə başçısını itirməyə görə müavinət hər ailə üzvü üçün 68 manatdan 80 manata, yeni doğulan uşaqlara görə birdəfəlik müavinət 109 manatdan 200 manata çatdırılıb. Sağlamlıq imkanları məhdud uşaqlarla bağlı reabilitasiya və sosial xidmətlər sistemi də təkmilləşdirilir və genişləndirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzi müasir tələblərə uyğun qurulub, hazırda isə Qəbələ və Şəmkir rayonlarında da uşaq reabilitasiya müəssisələri tikilir. Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi ilə Bakıda Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi yaradılıb, Heydər Əliyev Fondunun müvafiq proqramı çərçivəsində nazirliyin Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində nümunəvi yaşayış və reabilitasiya şəraiti yaradılıb. Son illərdə Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi istifadəyə verilib.

Bununla yanaşı, nazirliyin sosial sifarişləri ilə icra olunan layihələr əsasında minlərlə uşaq reabilitasiya yönümlü sosial xidmətlərlə təmin edilir.

✍ **Hafta.az**

# Öyrənmək hər uşağın haqqıdır



**1 İyun - Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə "Azercell Telekom" MMC tam fərqli bir layihə gerçəkləşdirir. Uşaqların inkişafına daima xüsusi diqqətlə yanaşan "Azercell" bu dəfə 1000-dən çox xüsusi qayğıya ehtiyacı olan uşağın dil öyrənməsinə kömək edəcək "Busuu" tətbiqinə çıxışını təmin edir.**

Bütün dünyada məşhur olan "Busuu" - xarici dil öyrənmə mobil tətbiqinin 90 milyondan çox istifadəçisi var. "Busuu" xarici dil öyrənmək üçün ən yaxşı 10 mobil tətbiqlərdən biridir. Tətbiq vasitəsilə eyni anda 12 dil öyrənmək, qrammatika, yazı, dinləmə və danışıq məşqlərini keçirmək mümkündür. Bu tətbiq beynəlxalq McGraw-Hill dil sertifikatını qazanmaq imkanı da verir. "Öyrənmək hər bir uşağın haqqıdır" mesajını daşıyan kampaniya çərçivəsində "Azercell" fiziki məhdudiyyətli və sağlamlıq problemləri olan, həmçinin aztəminatlı ailələrin uşaqlarına, autizm sindromlu uşaqlara, eləcə də aprel şəhidlərinin və qazilərinin övladlarına "Busuu" - dil öyrənmə tətbiqi üçün 6 aylıq pulsuz kodlar hədiyyə edir. Şirkət tərəfindən təqdim olunan imkanlar bununla bitmir. Zəruri hallarda Azercell Mobil Müştəri xidmətinin əməkdaşları regionlara səfər edərək bu tətbiqə qoşulmaq üçün ailələrə dəstək olur və pulsuz nömrələr də paylayırlar. Hər bir uşağın özünü inkişaf etdirməsi və xarici dil öyrənməsinə dəstək olacaq bu xeyriyyə kampaniyası ölkənin müxtəlif şəhər və rayonlarını əhatə edir. Ailələrin siyahısı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azercell-in dəstəyi ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" xidməti və Uşaq Paralimpiya Komitəsi, həmçinin "Birgə və sağlam", "Zəfər" İctimai Birlikləri tərəfindən təqdim olunub. Bu layihənin gerçəkləşməsində Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi də dəstək verib. "Azercell Telekom" MMC yarandığı ilk gündən uşaqların təhsili və uşaq hüquqlarının müdafiəsi sahəsində müxtəlif layihələr həyata keçirir. Azercell-in dəstəyi ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" xidməti, artıq 10 ildir uşaqlara ilkin psixoloji, emosional yardımın, müxtəlif problemlərin həllinə dair məsləhətlərin verilməsi, reabilitasiya mərkəzlərinə yönləndirmə və təxirəsalınmaz köməyin göstərilməsi üzrə çalışır. Uşaq Paralimpiya Komitəsi tərəfindən sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial həyata inteqrasiya imkanları yaradılır. Azercell-in digər unikal layihəsi kimsəsiz və yardıma ehtiyacı olan, aztəminatlı ailələrin uşaqları üçün "Mobil Diş" və "Mobil Göz" Klinikalarının yaradılmasıdır. Hər il səyyar klinikalar tərəfindən minlərlə uşağa pulsuz tibbi xidmət göstərilir, onların müayinəsi həyata keçirilir. Ölkənin aparıcı mobil operatoru uşaqları arzuolunmaz İnternet məzmunundan qorumaq üçün "Azercell Kids" adlı həm təhsil, həm də əyləncə məzmunlu eksklüziv mobil tətbiqi istifadəyə verib. Bundan əlavə, "Azercell" şirkəti paytaxt və regionlarda "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda şagird, müəllim və valideyinlər üçün təlim proqramları təşkil edib. "Azercell Telekom" MMC ildə yalnız bir gün deyil, daima uşaq hüquqları və uşaqların sağlam inkişafı məsələlərini cəmiyyətin diqqətində saxlamaq, uşaqların rifahının yüksəlməsinə dəstək olmaq məqsədilə müxtəlif layihələr həyata keçirir və buna davam edəcəkdir.

# Bəs sizin toyunuz nə vaxta qaldı?

***Karantin rejimi əməlli-başlı yumşaldılıb. Ticarət və əyləncə mərkəzləri fəaliyyətinə start verib. Özü də iki ay yarımdan sonra... Bu qərar restoran və şadlıq saraylarına şamil olunmayacaq. Onlar hələ ki, gözləyəcəklər. Ən azından 15 iyuna qədər. Əmr isə böyük yerdəndi - Operativ Qərargahdan.***



Bəs restoran və şadlıq saraylarında hazırkı durum nə yerdədir? Onların hazırkı durumuna hafta.az-ın obyektivindən baxmaq istəyirsinizsə, monitora bir qədər də yaxın oturun. Son 45-50 gündə koronavirus pandemiyasının üzərinə kükrədiyi kafe, restoran, sadlıq sarayları ilə bağlı gördüklərimizi sizinlə bölüşmək istəyirik.

Əvvələ, onu deyək ki, bəzi restoranların giriş qapısı bağlı olsa da, bəziləri açıq idi. Təkəmseyrək adamlar vardı. Texniki işçilər, adminstratorlar, təmizlikçilər...

Onların da sayı 2-3 nəfəri keçmir. Restoran yetkililəri ara-sıra fəaliyyəti dayanmış obyektlərinə gəlir. Müəyyən məsələləri kontrol edir. Toylarla bağlı sifarişlər qəbul olunur. Amma toylara qadağanın nə zaman götürüləcəyini bilmirlər. Ofisiantlar isə demək olar ki, gözə dəymirlər. İşləməsələr də dövlətin qərarına əsasən pulları ödənilir. Restoran əməkdaşları belə deyir.

■ **"Xan sarayı"ndan bildirildi ki, iyunun 15-dən sonra hər şeyin düzələcəyinə ümid edirlər. Restoran əməkdaşları onu da əlavə etdilər ki, maaşlarını alırlar.** Yəni, maaşsızlıq problemi yaşamırlar. Koronavirus pandemiyası onların da aylıq və gündəlik qazanclarına təsirsiz ötüşməyib.

Sarayın adminstratoru onu da əlavə etdi ki, fəaliyyətləri Operativ Qərargahın qərarından asılı olacaq: "Onlar hansı qərarı verəcəksə, biz də həmin qərarlar əsasında fəaliyyət göstərəcəyik. Pandeniya hamımızın sosial durumuna, işinə mənfi təsir göstərib. Ümid edirik ki, yaxın günlərdə, əsasən də iyunun 15-dən sonra hər şey yoluna düşəcək".

■ **"İmperial" şadlıq sarayından bildirdilər ki, toy və nişan mərasimlərinə yaxın zamanlarda icazə veriləcəyinə ümid edirlər:** "İyun və iyul aylarına yerimiz yoxdur. Bütün günlər doludur. Avqust ayına yerimiz var. Menyulardakı qiymətlərimiz dəyişməyib. 40-45 və 55 manatadır. Ümidimiz var ki, bu yaxın günlərdə bərpa olunacaq. Sifarişləri qəbul etmişik".

■ **"Cıdır düzü" restoranının əməkdaşları isə maaşlarını qanunvericiliyə uyğun qaydada aldıqlarını bildirdilər.** Restoran rəhbərliyi, adminstrator isə qeyd etdilər ki, 3 aydır ki, faktiki olaraq heç nə qazanmırlar. Onlar tezliklə toy və nişan mərasimlərinə icazə veriləcəyinə ümidli olduqlarını söylədilər.

Toyların bərpası ilə bağlı Operativ Qərargaha ünvanlanan hər hansı təkliflərinin olub-olmadığını soruşduq. Onlar bildirdilər ki, buna ehtiyac yoxdur: "Operativ Qərargahın əməkdaşları hər şeyin ən doğrusunu bilirlər və onu edirlər. Bizim təklif hazırlamağımıza ehtitac yoxdur. 15 iyundan sonra toy və nişan mərasimlərinin bərpa ediləcəyi isə dəqiq deyil. Sadəcə olaraq həmin dövrdə karantin müddəti başa çatır. Restorqnların fəaliyyətinin davam etdirilməsinə isə aydınlıq gətirilməyib".

Restoranlardan onu da bildirdilər ki, qarşıdakı aylar üçün bütün yerlər doludur. Təqvim günlərində boş yer yoxdur. İcazə nə vaxt veriləcəksə, siyahı üzrə mərasimlər gerçəkləşdiriləcək. Qiymətlərdə də hər hansı dəyişikliyin olmayacağını vurğuladılar. Yəni, karantindən əvvəl qiymətlər necə idisə karantindən sonra da eyni qaydada olacaq.

✍ *Tural*

# Pandemiya ilə mübarizədə iştirak edən tibb işçilərinə 13.1 milyon manat pul verildi

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən ümumilikdə 11 707 nəfərə - 9015 tibb işçisinə, 2692 qeyri-tibb işçisinə aprel ayı üzrə iş vaxtına mütənasib olaraq müddətli əlavə ödənilib.**



Agentlikdən hafta.az-a verilən xəbərə görə, Bakı şəhəri üzrə 140, respublikanın digər şəhər və rayonları üzrə 115 dövlət tibb müəssisəsinin tibb və qeyri-tibb işçilərinə aprel ayı üzrə iş vaxtına/saatına mütənasib olaraq 13.1 milyon manat müddətli əlavə ödənilib. Nazirlər Kabinetinin Qərarına uyğun olaraq, yeni növ koronavirus infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına iş vaxtına mütənasib olaraq müddətli əlavələr aşağıdakı qaydada ödənilib:

1.Tibbi profilaktik tədbirləri həyata keçirən 3124 tibb işçisinə aylıq vəzifə (tarif) maaşının 3 misli məbləğində cəmi 1.9 milyon manat ödənilib.

Ay ərzində iş günlərinə/-saatlarına mütənasib hesablama düsturu: müddətli əlavə = (Vahid Tarif Cədvəli üzrə tarif maaşı/aylıq iş günlərinin sayı/iş saatlarının cəmi) x işçinin çalışdığı günlərin sayı x müddətli əlavənin misli Agentliyin Maliyyə departamentinin rəhbəri Rasim Həsənov aşağıdakı nümunə ilə hesablamanı izah edir:

"Poliklinikada çalışan həkim terapevtin 11-ci dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 375 manatdır. Həkim koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 5 gün işə cəlb olunubsa, deməli 216 manat 35 qəpik müddətli əlavə almalıdır. 216.35 = ((375 / 26) x 5) x 3. Qeyd edim ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

2.Təcili tibbi yardım xidməti göstərən 3837 tibb işçisinə və həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan 269 laboratoriya işçisinə aylıq vəzifə (tarif) maaşının 4 misli məbləğində cəmi 6.3 milyon manat ödənilib.

R.Həsənov aşağıdakı nümunə ilə hesablama qaydasını izah edir: "Təcili və təxirəsalınmaz tibbi yardımda çalışan təcili tibbi yardım həkiminin 11-ci dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 375 manatdır. Həkim koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 60 saat işə cəlb olunubsa, deməli 576 manat 92 qəpik müddətli əlavə almalıdır. 576.92 = ((375 / 156) x 60) x 4. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

3. Pasiyentlərə stasionar tibbi xidmət göstərən 1785 tibb işçisinə aylıq vəzifə (tarif) maaşının 5 misli məbləğində cəmi 2.6 milyon manat ödənilib.

Maliyyə departamentinin rəhbərinin izahı: "Xəstəxanada çalışan həkim infeksionistin 11-ci dərəcə aylıq vəzifə (tarif) maaşı 375 manatdır. Həkim koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 5 gün işə cəlb olunubsa, deməli 360 manat 58 qəpik müddətli əlavə almalıdır. 360.58 = ((375 / 26) x 5) x 5. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

Onu da qeyd edək ki, 2692 qeyri-tibb işçisinə 3-5 misli məbləğində 2.3 milyon manat müddətli əlavə verilmişdir. Nümunə: Təcili və təxirəsalınmaz tibbi yardımda çalışan sürücünün 3-cü dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 271 manatdır. 5 günlük iş həftəsində çalışan sürücü koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 5 gün işə cəlb olunubsa, deməli 184 manat 77 qəpik müddətli əlavə almalıdır. 184.77 = ((271 / 22) x 5) x 3. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq.

Məlumat üçün bildirək ki, dövlət tibb müəssisələri tərəfindən göndərilən siyahılara uyğun olaraq Agentlik tərəfindən aprel ayı üzrə müddətli əlavələrin ödənilməsi davam edir.

Qeyd edək ki, mart ayı üzrə Agentlik tərəfindən yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən 21634 tibb işçisinə, 2386 qeyri-tibb işçisinə mart ayı üzrə iş vaxtına mütənasib olaraq 11.7 milyon manat müddətli əlavə ödənilib.

✍ *Hafta.az*

# Beynəlxalq axtarışda olan vəzifəli şəxsin işi məhkəməyə göndərilib

**Astara Rayon İcra Hakimiyyəti başçısının (RİHB) Şahağacı kəndi üzrə icra nümayəndəliyinin mühasibi vəzifəsində işləmiş Vasif Bağırovun qanunsuz əməlləri barədə daxil olmuş müraciət əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı yekunlaşıb.**



Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, aparılmış istintaqla Vasif Bağırovun "Bank Respublika" ASC-nin Astara filialının müdiri vəzifəsində işləmiş Rövşən Quliyev, Astara RİHB-nin Şahağacı kəndi üzrə icra nümayəndəsi vəzifəsində işləmiş şəxslər və qeyriləri ilə qabaqcadan əlbir olaraq rayonun Şahağacı, Şiyəkəran, Kolatan, Siyəkü və Kakolos kəndlərindən olan 61 sakininin adlarına ayrı-ayrı məbləğlərdə kreditlər götürərək, "Bank Respublika" ASC-nin ümumilikdə 141 min manat məbləğində əmlakını mənimsəməsinə, bundan başqa vəzifə saxtakarlığı edərək 61 kənd sakini və "Bank Respublika" ASC-nin ümumilikdə 37 100 manat məbləğində əmlakını ələ keçirərək təkrarən dələduzluq etməsinə əsaslı şübhələr yaranıb.

3 fevral 2018-ci il tarixdə "Bank Respublika" ASC-nin Astara filialının müdiri Rövşən Quliyev və qeyrilərinin Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə istintaq yekunlaşdırılaraq məhkəməyə göndərilib.

Vasif Bağırov istintaq orqanından qaçıb-gizləndiyindən cinayət işinin materiallarından başqa cinayət işi ayrıca icraata ayrılaraq istintaqı aparılmış və iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib. 25 aprel 2019-cu il tarixdə Vasif Bağırov Rusiya Federasiyasının İrkutsk vilayətində tutularaq Azərbaycan Respublikasına ekstradisiya edilib və ona Cinayət Məcəlləsinin 179.3.2, 178.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 178.2.2 (təkrar törədildikdə) və 178.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddələrində nəzərdə tutulan ittiham elan edilib.

Cinayət işi üzrə istintaq 25 may 2020-ci il tarixdə tamamlanaraq baxılması üçün Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Avtomobilin idarə olunması üçün etibarnamə verilməsin



**"Avtomobilin idarə olunması üçün digər şəxslərə verilən etibarnamə ləğv edilməlidir". Bunu Milli Məclisin növbədənkənar sessiyasının ilk iclasında millət vəkili Azər Badamov deyib.** O bildirib ki, etibarnamə sovetdən qalma məsələdir: "İnkişaf etmiş ölkələrdə avtomobilin idarə olunması üçün etibarnamə verilməsi sistemi yoxdur. Bizdə vətəndaş öz yaxın qohumuna etibarnamə olmadan maşını idarə etməyə verə bilmir. Belə olan halda, qanunvericiliyə uyğun 40 manat cərimə mexanizmi var. Etibarnamə bu gün aktuallığını itirib. Əgər avtomobil itirsə, texniki imkanlardan istifadə edib, onu tapmaq mümkündür. Ölkəmizin imkanlarını nəzərə alaraq, qanunvericilikdə etibarnamə ilə idarə etmək məsələsinin ləğvini təklif edirəm".

✍ *Hafta.az*

# Ailəsində koronavirusa yoluxma halı olan şəxslər imtahanlara buraxılmayacaq

◂ əvvəli 1-ci səhifədə

Hələlik ali məktəblərə və 11 illik bazadan kolleclərə qəbul imtahanları elan edilməyib. Məleykə Abbaszadə deyib. Onun sözlərinə görə, ali məktəblərə və 11 illik bazadan kolleclərə sənəd qəbulu iyunun 5-dək aparılacaq. İndiyədək 75692 nəfər ali məktəbə sənəd verib. Onların təxminən 12800 nəfəri əvvəlki illərin məzunudurlar.

Subbakalavrların ali məktəblərə imtahansız qəbulu üçün müraciət bu gündən başlanacaq. Məleykə Abbaszadə mətbuat konfransında deyib. Onun sözlərinə görə, subbakalavrlar elektron formada müraciət etdikdən sonra DİM tərəfindən sorğu vasitəsilə onlar barədə məlumat əldə ediləcək:

"Subbakalavrlar adi abituriyent kimi də ərizə verə bilərlər. Bu zaman onlar müsabiqədə iştirak üçün minimal bal toplamalıdırlar". Biz az sayda şagirdi olan məktəbdə imtahan keçirə bilməyəcəyik. Məleykə Abbaszadə bu gün keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, imtahanlar böyük kəndlərin məktəbində keçiriləcək:

"Elə kənd məktəbləri var ki, onlar modul tiplidirlər, müasir binaları var, biz belə məktəblərdə imtahan keçirə bilərik. Biz indidən hər kəsə imtahanın harada keçiriləcəyini elan edə bilmərik. Bu barədə məlumatları abituriyentlər şəxsi kabinetlərinə daxil olmaqla öyrənə biləcəklər".

Üzrlü səbəblərdən iştirak edə bilməyənlər üçün buraxılış imtahanları təkrar sentyabrda təşkil ediləcək. Məleykə Abbaszadə bu gün keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, amma indi ali məktəblərə qəbul olmaq istəyənlər mütləq şəkildə iyunda keçiriləcək buraxılış imtahanlarında iştirak etməlidirlər:

"Onlar bu imtahanı verməlidirlər ki, ali məktəblərə qəbul müsabiqəsində iştirak edə bilsinlər, amma ali məktəbə qəbul olmaq istəyənlər sentyabrda da imtahan verə bilər". Rezidenturaya qəbul imtahanının iyulun sonu, avqustun əvvəlində keçirilməsi nəzərdə tutulur. Məleykə Abbaszadə deyib. Onun sözlərinə görə, rezidenturaya qəbul imtahanı iki mərhələli keçiriləcək. İmtahanın mərhələləri arasında təxminən 10 gün fasilə veriləcək.

M.Abbaszadə qeyd edib ki, iyunun 8-dən 18-nə qədər magistratura səviyyəsi üzrə ixtisas seçiminə başlanacaq. İxtisaslaşmaya aid jurnalın bu həftəsonuna hazır olacağı gözlənilir.

M.Abbaszadə əlavə edib ki, magistratura üçün nəzərdə tutulan şifahi müsahibələr onlayn qaydada keçiriləcək.

# 2 metrlik məsafə, tibbi maskasızlar və avtobuslardakı boş spirt qabları...

**Paytaxtdakı dayanacaqlara baş çəkdik. İnsanların - sərnişinlərin tibbi maskadan, digər qoruyucu vasitələrdən istifadə edibetmədiyi ilə yerindəcə tanış olmaq istədik. Əslində bu istəyimizə səbəb son günlər ölkəmizdə koronavirus pandemiyasına yoluxanların sayındakı artımlarla bağlıdır. Hər şeyə Hafta.az-ın obyektivindən baxaq.**



Gördüklərimizdən gəldiyimiz nəticə ondan ibarətdir ki, sərnişinlər bir sıra dayanacaqlarda 2 metrlik ara məsafəsinə diqqət yetirmirlər. Ara məsafəsi saxlamırlar. Səbəbini soruşduqda onlar bunu yolunu gözlədikləri marşrutların gec gəlmələri ilə izah etdilər.

Yəni, dayanacaqlarda sıxlıq yaranır və mənzil başına tələsən sakinlər ara məsafəsinə fikir vermirlər. Gələk tibbi maskadan istifadəyə; bir çox dayanacaqlarda tibbi maskadan istifadə edilmir. Şəhərin mərkəzində - xüsusən də metronun "28 May" metrostansiyasına yaxın ərazilərdə tibbi maskadan daha çox istifadə edildiyini görürük.

Hətta bəzi valideynlər azyaşlı uşaqları üçün də tibbi maska alıb avtobuslara minirlər. Şəhərin mərkəzi hissələrində hətta ara məsafəsinə də diqqət edilir. Həssaslığa yanaşılır. Bir çox dayanacaqlarda sərnişinlərin avtobusdan düşdükdən sonra əllərini spirtlədiklərinin də şahidi oluruq. Hətta avtobuslarda sıxlıq olanda marşruta minməyənləri də görürük.

Təbii ki, bu qəbildən olan və virusa həssaslığa yanaşanlar azlıq təşkil edirlər. "20 Yanvar" metrostansiyası istiqamətində isə demək olar ki, qəbul edilmiş qaydalara məhəl qoyulmur. Əməl edilmir. Diqqətçəkən məqamlardan biri də bir sıra avtobuslarda insanların asğırarkən və öskürərkən əllərini ağızlarına tutmaması ilə bağlıdır. Necə gəldi öskürürlər.

Sürücülərlə söhbətləşirik. Deyirlər ki, hər səhər işə çıxanda və iş saatı bitib qarajа dönəndə avtobuslar dezinfeksiya edilir. Yuyulur. Özləri də hər səhər tezdən həkim müayinəsindən keçirlər. Hərarətləri ölçülür, hər şey yolunda olduqdan sonra marşrut xəttə buraxılır. Hətta bəzi avtobuslarda spirt və dezinfeksiyaedici məhlul qablarını da gördük. Amma bir çoxlarının içi boş idi.

✍ *Tural*

# Son 1 il ərzində "Nar"ın "4G" istifadəçilərinin sayı 66% artıb

**Hər zaman abunəçilərini yüksəkkeyfiyyətli və kəsintisiz internetlə təmin edən "Nar"ın "4G" istifadəçilərinin sayı 2020-ci ilin birinci rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə 66% artıb.** Mobil operatorun təqdim etdiyi sərfəli internet paketləri sayəsində internet trafikinin həcmində 51% artım qeydə alınıb. Qeyd edək ki, artıma bütün ölkə ərazisində LTE/LTE-A texnologiyalı baza stansiyalarının quraşdırılması, smartfon penetrasiyasının artımı, eləcə də müştərilərin internetə olan ehtiyaclarını qarşılamaq məqsədilə təqdim edilən məhsullar təsir edib.




Abunəçilərini yüksəkkeyfiyyətli və sürətli "4G" şəbəkəsi ilə təmin etmək məqsədilə "Nar", cari ilin ilk üç ayı ərzində paytaxtda və regionlarda əhatə dairəsini genişləndirməyə davam edib.

Belə ki, 2020-ci ilin birinci rübü ərzində ölkə ərazisində 50-yə yaxın "3G" və "4G"/"4.5G" baza stansiyası quraşdırılıb. Müştərilərinə hər zaman kəsintisiz və sürətli internet təcrübəsi təqdim edən "Nar"ın 4G istifadəçilərinin sayı 1 milyonu ötüb. Hazırda mobil operatorun 4G istifadəçilərin sayı Bakı üzrə 67%, regionlar üzrə isə 33% təşkil edir.

# Əliş bəy Kərəmlinin portreti yaradıldı

***Şairlər kimi rəssamlar da qeyri-adiliyi ilə seçilirlər. Bu istedadı onlara Tanrı verib. Onlar rəsm əsərləri çəkmirlər, sanki fırçaların, rəngli boyaların dili ilə Tanrısı ilə söhbət edirlər. Onların yaratdıqları rəsm əsərlər həmişə insanları düşündürərək, böyük keçmişindən və gələcəyindən xəbər verir. O cür sənət əsərləri ölmür, əsrlər boyu daim yaşayır.***

Ölkəmizdə istedadlı rəssamlar çoxdur. Onlardan biri də tanınmış rəssam Sehran Allahverdidir. Xatırladım ki, Sehran Allahverdi 1961-ci ildə Neftçala rayonunda doğulub, boya başa çatıb.1991-ci ildə Azərbaycan Dövlət Neft Kimya İnstitutunun iqtisadiyyat fakültəsini bitirsə də, amma ixtisası üzrə işləməyib. Uşaqlıq illərindən rəssamlıq sənəti ilə məşğul olub. Elə çörəyini də bu sənətdən çıxarır.

**Seheran Allahverdi "Həftə içi"nə keçdiyi sənət yolundan danışdı:**

- Mən uşaqlıq illərindən bu sənətə həvəs göstərmişəm. Hələ Taqay kənd orta məktəbində oxuyarkən gözəl rəsm əsərləri çəkirdim.

Yaxşı yadımdadır. 7-ci sinifdə oxuyurdum, rəhmətlik Cəfər müəllim bizə riyaziyyat dərsi keçirdi. Uşaqlar dəftərə misalları yazırdı, mən isə yazı taxtasının qabağında dayanıb bizə dərs deyən Cəfər müəllimə baxdım, sonra onun xəyalını 12 vərəqli riyaziyyat dəftərimin üz qabığında gördüm. Təkrarən bir də Cəfər müəllimə baxdım və yenə də dəftərin üz qabığında onun surəti gözlərimin önündə göründü. Cəfər müəllimin əksini bu dəftərə çəkdim və gözəl bir sənət əsəri alındı. Bu, mənim ilk sənət əsərim oldu. Elə bu əsərlə də məktəbdə məni rəssam kimi tanıdılar. Məktəbin divar qəzetlərinin rəsmlərini və əl işlərini mən çəkirdim.

***- Sizcə, rəssamlıq sənəti hansı xüsusiyyətləri ilə seçilir?***

- Rəssamlıq çətin sənətdir. Hər bir insan bu sənəti öyrənə bilər, rəsmlər çəkə bilər, amma bu sənətin sirlərinə yiyələnə bilməz. Rəssamlıq böyük istedad tələb edir.

İlk öncə yaradıcı adam olmalıdır, təxəyyülündə gözəl obraz yaratmalıdır, romantik baxışları olmalıdır, onun gözəl duyma qabiliyyəti olmalıdır, rəngləri bir-birindən seçməyi bacarmalıdır. Eləcə də yüksək bədii təxəyyülü olmalıdır. Rəssam hər bir əsərdə özünü tapmalıdır, keçmişdən gələcəyə qədər olan məsafəni, sonsuzluğu görməlidir.



***- Nə qədər sənət əsəriniz var. Rafaelo Cokandro əsəri ilə dünyada tanındı. Bu əsər bu gün də onu yaşadır. Bəs siz hansı əsərlərinizlə tanınırsınız?***

- Təxminən, 200-dən çox portret və sənət əsərim var. Mən bu əsərlərlə yaşayıram. "Gülümsə", "Özünü tap", yəni çürük kəllə mənim ən məşhur əsərlərimdən birdir. Bu günə kimi heç bir rəssam bu cür əsər çəkməyib. Çox maraqlıdır. "Gülümsə" əsərimdə çürük kəllənin dişləri görünür. Kəllənin ağaran dişlərindən hiss edirsən ki, gülür. Milyon illər keçəcək, o çürük kəllə yalandan güləcək. Ona görə də həyata açıq gözlə baxılmalıdır, hər şey olduğu kimi görünməlidir. İnsanlarda yalançı gülüşlər olmamalıdır. Çürük kəllə kimi yalandan gülməməlidir. Yeri gəlmişkən deyim ki, ilk sərgim Bakı şəhərində Beyoğlu Şadlıq Evinin akt zalında keçirilib. 10 əsərim sərgilənib. Sərginin açılışında 1000-dən çox sənət adamları, tanınmış rəssam və elm xadimləri iştirak edirdi.



"Şuşa", "İtkin qardaşım", "Gözü yol çəkən anam" portretləri sərgi iştirakçılarının daha çox xoşuna gəldi. 2019-cu ilin noyabr ayında Türkiyənin Adana şəhərində yerləşən Sürməli otelində üç gün fərdi sərgim təşkil edildi. 15 əsərim sərgyə çıxarıldı. Şimalı Kipriz dövlətinə həsr etdiyim "Qardaş ovucu " əsərim hamının çox xoşuna gəldi. Əsərin mahiyyəti ondan ibarətdir ki, Kipriz yanır, qardaş Türkiyə isə ona dəsrək olur. Yəni əlini uzadaraq tutub, ovcunda o yanan odu saxlayır. Söz düşmüşkən deyim ki, yaradıcılığımda, əsasən, kompozisiya, təxəyülün məhsulları olan sənət əsərlərim daha çoxdur. Koronavirusla bağlı iki əsərim yaradıcılığımda xüsusi yer tutur. Əsərimin birində insan ağzına qoruyucu tibb maska taxıb, amma virus isə içəridən onun beynini yeyir.

***- Əsərləriniz satılırmı və ona qiymət qoyursunuzmu?***

- Elə sənət əsərlərim var ki, onun dəyəri pulla ölçülmür. Çörək xətrinə münasib qiymətə verirəm. Türkiyədə sərgidə olarkən, "Qardaş ovucu" əsərimi istədilər. 10 min manat məbləğində əsərimə qiymət qoydum, razı oldular. Koronavirus epidemiyasına görə müqavilə bağlaya bilmədik. Pandemiyadan sonra əsərimi alacaqlar.

***- Dünyanın tanınmış rəssamları ilə əlaqələriniz olurmu?***

- Mən internet vasitəsilə dünyanın ən məşhur rəssamları ilə rəsm mübadiləsi edirəm. Ən çox Avropa və Amerika dövlətlərinin rəssamları ilə dostluq edirəm.

Söz düşmüşkən deyim ki, Avstraliyada sərgim keçiriləcək, artıq viza əldə olunub. "COVİD-19" götürülən kimi, Avstraliyaya gedəcəyəm. Onu da vurğulayım ki, 100-ə yaxın şeir kitablarının və bədii əsərlərin üz qabığının şəkillərini mən çəkmişəm.

***- Necə oldu ki, memar Əliş bəy Sübhan oğlu Kərəmli Şirvaninin portretini yarada bildiniz? Axı, tarixi araşdırmalara görə, bu günə kimi onun tarixdə nə şəkli, nə də portreti olmayıb...***

- Diqqətinizə çatdırım ki, Zaur Ustac istedadlı şair olması ilə yanaşı, həm də gözəl tədqiqatçıdır. İnternet səhifəsində onun öz dövrünün tanınmış memarı Əliş bəy Kərəmli haqqında "Kərəmli-700" layihəsi diqqətimi cəlb etdi. Həmin layihəni oxudum, memar haqqında məlumat topladım, bilgilər əldə etdim. Sonra Zaur Ustacla tanış oldum. Bir neçə dəfə onunla görüşüb, bu barədə müzakirələr etdik. Zaur bəyin təxminləri və mənim bədii təxəyülüm əsasında Əliş bəyin portretini yaratdım. Mənə qədər Zaur Ustac Əliş bəyin sifət quruluşlarını və eskizlərini əldə etmişdi. On gün müddətində bu əsəri işlədim. Qeyd edim ki, bu bir tapıntıdır. Kremlin memarı və qurucusu olan Əliş bəyin portreti bu günə kimi rəssam tərəfindən çəkilməyib. Əliş bəy dünya miqyasında əvəzolunmaz memar olub. Əliş bəyin hələlik, iki portretini çəkmişəm. Biri Şamaxı Diyarşünaslıq Muzeyinə verilib. O birisi isə Dövlət Regional Kollecinə sənəd şəklində hədiyyə ediləcək. Xatırladım ki, Əliş bəyin Kremlə qədər Bağdadda, Təbrizdə nə qədər körpüləri, sarayları var idi, eləcə də Krımda Baxçasaray kompleksində gördüyü işlər artıq dünyaya bəlli idi. Avropada onu şamaxılı Alles kimi tanıyırdılar. 1367-ci ildə rus kinyazı Dimitri İvanova xəbər çatdırırlar ki, belə bir memar var. Knyaz Şirvan şahı Şeyx İbrahimə elçi göndərir ki, Moskvada bir qala tikmək üçün Əliş bəyin gəlməsinə icazə versin. Şeyx İbrahim uzaqgörən adam olub. Knyazın elçilərinə yox cavabı verib. İkinci dəfə elçilər gələndə Əliş bəy özü onları razı salır, o da Moskvaya gedir və Kremli tikir, müqavilə əsasında ödənişləri vaxtlı-vaxtında alır. Dmitri Əliş bəyin işlərini çox bəyənir. Belə bir qalanın başqa bir ölkədə tikilməsinə razı olmayan knyaz Əliş bəyə suiqəsd etdirir. O, Əliş bəyi yola salanda bir qazax tərəfindən xaincəsinə öldürülür. Xatırladım ki, rəsm əsərinə qədər mütxəlif bədii əsərlərdə Əliş bəyin üz cizgiləri haqında bədii təsvirləri var idi. Elə həmin təxəyyülləri və öz bədii təxəyyülüm bu əsərin ərsəyə gəlməsinə səbəb oldu. Qeyd edim ki, bu ərəfədə artıq Nəsiminin portretini çəkmişdim. Və buradan da belə bir qənaətə gəldim ki, Əliş bəylə Nəsimi, təxminən, eyni dövrdə yaşayıb və o dövrün kişi geyimlərindən istifadə ediblər. Nəhayət ki, Əliş bəyin portretini yarada bildim.

Ən böyük əsərlərimdən biri də yaratdığım emalatxanadır. Maraqlı odur ki, qayanın üzərində bu emalatxananı yaratmışam. Bütün materiallar təbii daşlardan ibarətdir. Gələcəkdə fikrim budur ki, emalatxana binası bir muzey kimi fəaliyyət göstərsin, xarici turistləri özünə cəlb eləsin. Bu evin dəyəri yoxdur. Emalatxananın hər küncü bir tarixdir. İkimərtəbəli binada yaşı iki əsrə gedib çıxan piano, yataq dəst, bir sözlə, qədim antik əşyalarla zəngindir.

*✍ Qələndər Xaçınçaylı*

MƏDƏNİYYƏT

## Mübariz Tağıyev əməliyyat olunub



**Xalq artisti Mübariz Tağıyevin səhhəti qəfil pisləşib. Hafta.az bildirir ki, ölkə.az-ın əldə etdiyi xəbərə görə, sənətkar paytaxtdakı özəl klininkaların birinə çatdırılıb.**

Tağıyev bağırsağından əməliyyat edilib. Xalq artisti müalicəsini evdə davam etdirir.

İDMAN

## Şahmatçılarımız onlayn Avropa çempionatında uğurla çıxış ediblər




**Şahmatın rapid növü üzrə onlayn Avropa çempionatı başa çatıb. Qitə çempionatında Azərbaycan təmsilçiləri uğurla çıxış ediblər.**

Şahmatçılarımızdan Gülsənəm Ağayeva (A qrupu) qızların yarışında birinci, ümumi nəticədə isə ikinci olub. Elnur Mehtiyev isə C qrupunun qalibi adına layiq görülüb. Turnirin D qrupunda mübarizə aparmış şahmatçılarımız Murad İbrahimli qızıl, Abdulla Qədimbəyli gümüş medal qazanıblar.

## "Mançester Yunayted" Odion İqalo ilə icarə müddətini uzadıb

**Hücumçu Odion İqalo karyerasını İngiltərənin "Mançester Yunayted" klubunda davam etdirəcək. Çinin "Şanxay Şenxua" klubuna məxsus 30 yaşlı nigeriyalının icarə müddəti uzadılıb.**



Forvard 2021-ci il yanvarın 31-dək Premyer Liqa təmsilçisində çıxış edəcək. 2020-ci ilin yanvarında mayın 31-dək icarəyə götürülən hücumçu üçün 3 milyon funt sterlinq ödənmişdi. İqalo isə həftədə 130 min qazanırdı. Qeyd edək ki, Odion Mançester təmsilçisində keçirdiyi 8 matçda 4 qol vurub.

## Şvaynştayger məşqçiliyə başlayır



**Almaniya millisinin sabiq yarımmüdafiəçisi Bastian Şvaynştayger məşqçiliyə başlamaq istədiyini açıqlayıb. Hafta.az qol.az-a istinadən xəbər verir ki,35 yaşlı keçmiş futbolçu ölkəsinin mətbuatına müsahibəsində bildirib.** O, xoşuna gələcək maraqlı bir variant yaransa, bu barədə düşünəcəyini deyib. Qeyd edək ki, "Bavariya"nın yetirməsi olan və karyerasının böyük hissəsini Münhen klubunda keçirən Şvaynştayger İngiltərədə "Mançester Yunayted", ABŞ-da "Çikaqo Fayr" komandalarının da çıxış edib. O, 2019-cu ilin oktyabr ayında isə futbolçu karyerasını başa vurduğunu açıqlayıb.

MARAQ

## Qaraçılar haqqında 11 fakt

**Qaraçı - bu öz adətləri və fərqli xüsusiyyətləri ilə seçilən romanlara verilən bir adddır. Fərqli geyimləri, ənənə və mədəniyyətləri ilə fərqlənən bu xalqı heç vaxt anlaya bilməmişik. Hafta.az publika.az-a istinadla qaraçılar haqqında vəhşi faktları təqdim edir:**



**Ailə həyatı çox tez başlayır**

Qaraçı qızları üçün ailə qurmaq yaşı 14-dür. Adətə görə, 14 yaşı tamam olan qız, artıq məclislərdə oynamağa subay oğlanların və onların atalarının diqqətini çəkməyə çalışır. 19 yaşında ailə qurmayan qız "qoca qız" hesab edilir.

**Kiloqramla qızıl**

Qaraçı ailələrində toy günü xeyli maraqlı olur. Gəlinin atası və qardaşı ona ya kiloqram, ya da bankalarda qızıl hədiyyə edir. Bankaların içi qızıl üzük, bilərzik, sırğa ilə dolu olur.

**Ailənin yaşlı qadınları**

Qaraçı ailəsi üçün toy günü qızın bakirə olması vacibdir. Həmin gün ailənin yaşlı qadınları qızın bakirə olub-olmadığını yerindəcə öyrənmək üçün gəlin otağında gizlənir. Daha sonra qanlı mələfə sinidə bütün qonaqlara göstərilir.

**Qadağa**

Qaraçı qız və ya oğlan başqa millətdən olan biri ilə heç zaman ailə qura bilməz. Bu qadağandır.

**Uşaq oğurlayırlar**

Qaraçı ailəsində oğlan uşağına daha yüksək dəyər verilir. Hər ailədə, heç olmazsa, bir oğlan olmalıdır. Bu, mümkün olmadıqda, onlar başqa millətdən də olsa, oğlan uşağı övladlığa götürürlər. Müxtəlif vaxtlarda qaraçıların uşaq oğurlaması barədə yayılan miflər də buradan qaynaqlanır.

**Məktəbləri seçmirlər**

Qaraçı ailələrində məktəbə münasibət fərqlidir. Onlar hesab edir ki, uşaq bir neçə il məktəbdə oxusa, yetərlidir.

Daha sonra ailə işi ilə məşğul olmalıdır. Məsələn, 3-cü sinifdən sonra uşağın oxumasındansa, ailə işləri ilə məşğul olmalarını daha vacib hesab edirlər.

**Qadın kişidən üstün ola bilməz**

Bir qaraçı ailəsində qadın heç zaman kişidən yüksək ola bilməz. Hətta ikimərtəbəli evdə kişi birinci mərtəbədədirsə, qadın ikinci mərtəbəyə qalxa bilməz.

**Qadınlar həmişə iki-iki ətək və önlük geyinməlidir**

Qaraçı qadınları həmişə iki ətək və önlük geyinməlidir. Çünki birinci ətək bədənə dəydiyinə görə natəmiz hesab edilir. İkinci isə nisbətən təmiz olur. Yalnız üstdəki ətəyə toxunmaq, qab-qacaq söykəmək, əlləri silmək olar.

**Öz məhkəmələri**

Qaraçıların öz məhkəmələri var. Orada hakimlər ən hörmətli qaraçılar olur. Onlar tərəflərin arqumentlərini dinləyir, hökm çıxarır. Ən ciddi cəza isə icmanı tərk etməkdir.

**And yeri - tabut**

Bu xalqın özünəməxsus and yeri var. Hər hansı bir qaraçı haqlı olduğunu sübut etmək üçün tabuta uzanır və and içir. Yalan danışırsa, o, qısa zamanda tabuta uzanacaq.

**Valideynlərinin dəfni üçün pul yığır**

Qaraçıların zəngin dəfn mərasimləri təşkil etmək adətləri var. Bir ildə isə valideynin dəfni üçün pul toplamaq asan deyil. Əgər ölüm birdən baş verərsə, bütün qohumlar pul yığır. Ən vacib məqam isə qəbrin üzərindəki abidənin təmtəraqlı olmasıdır.

## AFFA mövsümü dayandırdı - çempion bəlli oldu

**Xüsusi karantin rejimi nəzərə alınaraq, AFFA-nın İcraiyyə Komitəsinin üzvlərindən telefon zəngi vasitəsilə I Divizion, Gənclər Liqası və digər məsələlər barədə münasibət öyrənilib.**




Hafta.az xəbər verir ki, aparılmış geniş müzakirələrdən sonra səs çoxluğu ilə aşağıdakı qərarlar qəbul olunub:

1. I Divizionda çıxış edən klubların müxtəlif regionları təmsil etməsi, yay mövsümü ilə əlaqədar oyunların axşam saatlarında keçirilməsi zərurətinin yaranması və bəzi stadionlarda infrastrukturun (işıqlandırma sisteminin) müvafiq tələblərə cavab verməməsi, iştirakçı klublarla aparılmış müzakirələr nəzərə alınaraq, I Divizionda mövsüm dayandırılsın, hazırkı turnir cədvəlinə uyğun olaraq qalibin elan olunsun.

2. Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar təxirə salınmış Gənclər Liqasında oyunların keçirildiyi stadionlarda infrastruktur amilləri nəzərə alınaraq, mövsüm dayandırılsın, hazırkı turnir cədvəlinə əsasən qalib elan olunsun.

3. Premyer Liqada və Azərbaycan kuboku uğrunda yarışda oyun ərzində 5 əvəzetməyə icazə verilməsi təsdiqlənsin (FIFA-nın tətbiq etdiyi yeni qaydalara uyğun olaraq).

4. Premyer Liqa oyunlarının bərpasından 48 saat əvvəl klubların məşqçi və futbolçu heyəti COVİD-19 testindən keçirilsin.

Qeyd edək ki, Premyer Liqa, I Divizion və Gənclər Liqası ilə bağlı məsələlər müvafiq klublarla da müzakirə olunub və klublar tərəfindən müsbət münasibət bildirilib. Xatırladaq ki, hazırda birinci divizonda lider 37 xalla "Turan Tovuz"dur.

## Renat "Vulverhempton"un əsas komandasında

**Azərbaycan millisinin üzvü Renat Dadaşovun çıxış etdiyi "Vulverhepmton" hücumçusu Brayt Enobokare ilə yollarını ayırıb.**



İki ildə qol hesabını aça bilməyən nigeriyalı forvardın müqaviləsi yenilənməyib. Baş məşqçi Nunu Espiritunun klubun U-23 komandasında çıxış edən hücumçular - Raul Ximenes, Leonardo Kampanya və Renat Dadaşova üstünlük verəcəyi qeyd olunub. Qeyd edək ki, "Vulverhempton"un əsas komandasında debüt etməyən 21 yaşlı Dadaşov bu mövsüm U-23-də ümumilikdə 7 qol vurub.

## Gerye "Neftçi" ilə vidalaşdı




**"Neftçi"nin futbolçusu Donald Gerye Bakı klubu ilə vidalaşıb.** Hafta.az qol.az-a istinadən xəbər verir ki, bu barədə 31 yaşlı yarımmüdafiəçi özünün "İnstaqram" səhifəsində yazıb: "Yeni bir başlanğıc vaxtıdır. Təşəkkürlər "Neftçi", hər şey gözəl idi". Qeyd edək ki, Gerye ötən yaydan "Neftçi"də oynayırdı. Onun klubu ilə müqaviləsi iyunun sonuna qədərdir.